*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

ASCO

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

9 oktyabr 2020-ci il № 45-48 (9423) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

**Xarici sularda üzən dənizçilər Azərbaycanın haqq səsini dünyaya çatdırırlar**

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) üçrəngli bayrağımız altında xarici sularda istismar olunan gəmilərində üzən dənizçiləri Azərbaycanın haqq işinə və Milli Ordumuzun qətiyyətli mübarizəsinə dəstək nümayiş etdiriblər.*

Səh. 2

**Suqovuşanda Azərbaycan bayrağı dalğalanır**

*Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Madagizin erməni işğalından azad olunduğunu elan etdi. "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!".*

Səh. 3

**ADDA-nın prorektoru Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki seçilib**

*Azərbaycan Dövlət Dəniz Akademiyasının tədris və tərbiyə işləri üzrə prorektoru, texnika elmləri doktoru, professor Zahid Şərifov Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki seçilib.*

Türkiyədən Zahid Şərifova fəxri adın təsdiqini bildirən diplom göndərilib.

Səh. 5

**Təmirdən sonra "General Aslanov" quru yük gəmisi Bektaş limanından Türkiyənin Gebze limanına səfər edəcək**

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına aid "General Aslanov" gəmisi 2016-cı ildən üçrəngli bayrağımız altında xarici sularda üzürdü.*

Səh. 6

**Dəniz Akademiyasının müəllimlərinin kitabları Beynəlxalq Kitab Forumunda nümayiş olunub**

*Rusiyanın paytaxtı Moskvanın "Manej" sərgi salonunda 2-6 sentyabr 2020-ci ildə 33-cü Beynəlxalq Kitab Sərgisi keçirilib.*

Sərgidə dünyanın bir çox alim və müəllimlərini öz ətrafında birləşdirən Rusiya Təbiətşünaslıq Akademiyası nəşriyyatında 2004-2020-ci illər üçün çap olunmuş kitablar, həmçinin Akademiyanın son illərdə keçirilən tədris və metodiki nəşrləri də nümayiş etdirilib.

Səh. 7

**"Səbail" klubu 27 yaşlı konqolu yarımmüdafiəçi ilə yollarını ayırıb**

*"Səbail" klubu futbolçusu Mabidi Çikito Lema ilə yollarını ayırıb.*

Klubun saytının verdiyi xəbərə görə, 27 yaşlı yarımmüdafiəçinin müqaviləsi qarşılıqlı razılaşma əsasında ləğv edilib.

Səh. 8

# Allah dövlətimizi, Ordumuzu və torpaqlarımızı xalqımıza çox görməsin

***Azərbaycan torpaqlarının qanımıza susamış ermənilər tərəfindən işğal olunması məni çox üzürdü. Otuz ilə yaxın idi ki, özümü sevinməyə mənəvi haqqı olmayan insan kimi hiss edirdim. Nə özümdən yaşlıların, nə uşaqların üzünə baxa bilirdim. Ürəkdən sevinməyi yadırğamışdım...***

Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayaraq uğurlu əks-hücumu nəticəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Abdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad olundu. Ağdərə rayonu istiqamətində və Murov dağı silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək, bir sıra strateji yüksəkliklər nəzarətə götürüldü.

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Madagizin (Suqovuşan) erməni işğalından azad olunduğunu elan etdi. "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!".

İgid əsgərlərimiz həmin gün Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini işğalçılardan təmizlədilər. Bir gün sonra - oktyabrın 4-də isə Cəbrayıl şəhəri, rayonunun bir neçə yaşayış məntəqəsi, o cümlədən Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal kəndləri azad olundu. İndi bu kəndlərdə Azərbaycan bayrağı dalğalanır.

Cəbhədən aldığım bu qələbə xəbərlərindən duyduğum qürur hissini sözlə ifadə etməkdə çətinlik çəkirəm. Ali Baş Komandanımızın rəhbərliyi ilə Şanlı Ordumuz ulularımızın bizə yadigarı olan əzəli və əbədi torpaqlarımızı qaytarmaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün qəhrəmancasına vuruşur. Uzun illər yağı tapdağı altında qalan ərazilərimiz, yaşayış məntəqələrimiz işğaldan azad edilir, strateji əhəmiyyətli yüksəkliklər ələ keçirilərək nəzarətə götürülür... Allah bu haqq savaşında yar və yardımçımız olsun.

Dədə-baba torpaqlarımızı şəxsi mülklərinə çevirmək istəyən erməni qaniçənlərinə sarsıdıcı zərbələr endirilməsi nər oğullarımızın şücaəti, qəhrəmanlığı haqqında çox şey deyir.

Mən Qarabağ müharibəsi veteranıyam, keçən əsrin doqsanıncı illərində gedən ağır döyüşlərin iştirakçısı olmuşam, savaşın, xüsusilə insanlıqdan uzaq erməni faşistləri ilə savaşın nə olduğunu yaxşı bilirəm. Bu gün Milli Ordumuzun qəhrəman əsgər və zabitlərinin Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində erməni təxribatına qarşı layiqli cavabları məni həm də müharibə veteranı kimi sevindirir. Sənin də, mənim də ən böyük arzumuz Qarabağın azad edilməsidir. Bu müqəddəs, haqq işdə Ordumuza uğurlar arzulayıram. Əsgərlərimizin döyüş ruhuna isə sözün həqiqi mənasında heyranam. Bu ruh yiyələrinin Qələbə çalacağına inanıram. İnanıram ki, Zəfər bayrağımız Xankəndidə, Şuşada dalğalanacaq. O günlərin tezləşdirilməsinə bu gün hər bir azərbaycanlı töhfəsini vermək istəyir.

Azərbaycanın qüdrətli Ordusu, qətiyyətli, uzaqgörən Ali Baş Komandanı var. Həm də buna görədir ki, igid oğullarımız indi Vətənin bütövlüyünü təmin etmək üçün müharibəyə toya-bayrama gedənlər kimi ruh yüksəkliyi ilə, Böyük Qələbə əzmi ilə gedirlər. Dənizçi geyimini əsgər və zabit forması ilə dəyişən gəmiçilərimiz də az deyil.

İnanırıq ki, Mübarizlərimizin, Fəridlərimizin, Poladlarımızın, o cümlədən şəhid dənizçilərimizin qanı yerdə qalmayacaq.

Allah dövlətimizi, Ordumuzu və torpaqlarımızı xalqımıza çox görməsin.

Vətən bizimdir. Qələbə də bizim olacaq. İrəli, Azərbaycan əsgəri!

***Yaramız dərindədir,***
***Məlhəmi əlindədir.***
***Duamız sənindədir,***
***Sən yalnız irəli get.***

***Qaraya, ağa baxma,***
***Dərəyə, dağa baxma.***
***Göydən od yağa, baxma,***
***Sən yalnız irəli get.***

***Qarabağ qan ağlayır,***
***İçimdə can ağlayır.***
***Səni kim, nə saxlayır?***
***Sən yalnız irəli get.***

***Yağı nə vaxt udubdu?***
***Sarısını udubdu.***
***Bu yurd Odlar yurdudu,***
***Sən yalnız irəli get.***

***Hər dərdin bir sonu var,***
***Hər işin bir yönü var.***
***Zəfərin bir yolu var,***
***Sən yalnız irəli get...***

Allah hər birimizə işğal altında olan bütün torpaqlarımızda Azərbaycan Bayrağının dalğalanmasını görməyi nəsib etsin. Yaşasın Azərbaycan!

***Rasif İMANOĞLU***

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Prezident İlham Əliyev: “Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir.”

***Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. Dövlətimizin başçısının müraciətini təqdim edirik.***

**Prezident İlham Əliyevin xalqa müraciəti**

- Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işgal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi

rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar.

Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, “Qarabağ Ermənistandır və nöqtə”. Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, “Qarabağ Ermənistandır”, onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır.

Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının “andiçmə” mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər.

Bu yaxınlarda qondarma “Dağlıq Qarabağ respublikası” parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən “könüllü” hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır.

Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır. İş burasındadır ki, Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, bizdə olan dəqiq məlumata görə, bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıbdır. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Eyni zamanda, işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər bizim üçün Ermənistanın növbəti təxribatı sayılmalıdır. Çünki bu təlimlərin bir məqsədi var: Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları işğal etmək! Sadaladığım bütün faktlar bir daha onu göstərir ki, bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir.

Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə “Qarabağ Ermənistandır”, bu, yalandır. Mən deyəndə ki, “Qarabağ Azərbaycandır”, bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, “Dağlıq Qarabağ ordusu”nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Hərbi vəziyyət elan edilməsi haqqında
## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutduğunu, nəticədə mülki şəxslər və hərbiçilər arasında ölən və yaralananların olduğunu, bu hücumların qarşısının alınması məqsədi ilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başladığını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndini və 111-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilsin.

2. Hərbi vəziyyətin təmin edilməsi məqsədi ilə “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

3. Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilsin. Komendant saatının tətbiq edildiyi ərazilərdə:

3.1. şəxslərin xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənədləri olmadan küçələrdə və digər ictimai yerlərdə olmaları qadağan edilsin;

3.2. xüsusi giriş-çıxış rejimi tətbiq edilsin, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülsün.

4. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi komendant saatının tətbiqindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

5. Hərbi vəziyyət dövründə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin, vətəndaşların hüquq və azadlıqlarının qismən və müvəqqəti məhdudlaşdırılmasını nəzərdə tutan tədbirlər vəziyyətin kəskinliyindən irəli gələn hüdudlar daxilində və Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tətbiq edilsin.

6. Bu Fərman təsdiq olunması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilsin.

7. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsindən irəli gələn vəzifələrin həyata keçirilməsini təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 sentyabr 2020-ci il.***

## “Hərbi vəziyyət elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanının təsdiq edilməsi barədə
## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 8-ci bəndinə və 111-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Hərbi vəziyyət elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanı təsdiq edilsin.

***Sahibə Qafarova,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***
***Bakı şəhəri, 27 sentyabr 2020-ci il.***

## Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında
## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilsin.

2. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 sentyabr 2020-ci il.***

## Hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantının təyin edilməsi haqqında
## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Hərbi vəziyyət elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Süleyman oğlu Eyvazov hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantı təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 sentyabr 2020-ci il.***

## Birinci vitse-prezident Mehriban Əliyeva: “Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!”

***Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!***

Bu fikir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sentyabrın 29-da rəsmi “Instagram” səhifəsindəki paylaşımında yer alıb.

Paylaşımda daha sonra deyilir: “Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!”.

## Xarici sularda üzən dənizçilər Azərbaycanın haqq səsini dünyaya çatdırırlar

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) üçrəngli bayrağımız altında xarici sularda istismar olunan gəmilərində üzən dənizçiləri Azərbaycanın haqq işinə və Milli Ordumuzun qətiyyətli mübarizəsinə dəstək nümayiş etdiriblər.***

Dənizçilər çalışdıqları gəmilərin göyərtəsində əllərində Prezident İlham Əliyevin “Qarabağ Azərbaycandır və nida işarəsi” fikrini əks etdirən posterlə foto çəkdirib və bu fotoları #Karabakh #AllForKarabakh #KarabakhIsAzerbaijan həştəqlərindən istifadə edərək sosial şəbəkələrdə paylaşıblar.

Vətəndən uzaqda çalışan dənizçilər bu yolla Ermənistanın yalanlarına və təcavüzkar siyasətinə qarşı çıxdıqlarını, Qarabağın Azərbaycana məxsus olduğunu diqqətə çatdırıblar.

Bu təşəbbüsə ASCO-nun Xəzərdənkənar sularda fəaliyyət göstərən “Şair Vaqif”, “Şair Sabir”, “Natəvan”, “Hüseyn Cavid”, “Laçın” gəmiləri qoşulub.

Bir daha vurğulayaq ki, Azərbaycan dənizçiləri harada üzmələrindən asılı olmayaraq hər zaman Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşiblər. Fədakar dənizçilər Milli Ordumuzla fəxr edir, xalqımıza davamlı qələbə sevincləri arzulayırlar.

***Rövşən Abdurəhmanov***

## İşğaldan azad edilmiş Talış kəndi

***Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Talış kəndinin videogörüntülərini paylaşıb.***

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

## Azərbaycan Müdafiə Nazirliyi düşməndən götürülən hərbi qənimətin görüntülərini təqdim edib

***Azərbaycan Respublikasının Müdafiə Nazirliyi döyüşlərdə Ermənistan silahlı qüvvələrinin hərbçilərinin atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və hərbi texnikalarının görüntülərini paylaşıb.***

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla düşmən qənimətlərinin görüntülərini təqdim edir.

## Ermənistan ordusunun daha bir neçə hərbi texnikası ələ keçirilib

***Azərbaycan Ordusu qarşısında aciz qalan düşmən silah-sursatını, döyüş texnikalarını ataraq və döyüş mövqelərini tərk edərək qaçır.***

Hərbçilərimizin uğurlu əməliyyatı nəticəsində düşmənin daha bir neçə hərbi texnikası - 4 ədəd "KAMAZ" və 1 ədəd "QAZ" markalı avtomobillər qənimət kimi ələ keçirilib. Avtomobillərin içərisində erməni əsgərlərinə məxsus geyimlər, müxtəlif ləvazımatlar, rabitə və digər mühüm hərbi vasitələr aşkar edilib. Hərbi texnikaların hamısı işlək vəziyyətdədir.

Qeyd edək ki, daha əvvəl də Ermənistan ordusunun bir neçə hərbi maşını qənimət olaraq ələ keçirilmişdi.

## Əgər Ermənistan ordusu torpaqlarımızdan geri çəkilməsə, ərazilərimizdəki digər hərbi hissə və bölmələrini də eyni aqibət gözləyir

***İşğalçı Ermənistan silahlı qüvvələrinin bölmələri rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirməyərək nəinki öz mövqelərini, hətta döyüş bayraqlarını də qoyub qaçır.***

Ermənistan silahlı qüvvələrinin 193-cü desant həmlə taborunun hava endirim komanda birliyinin döyüş bayrağı ələ keçirilib.

Döyüş bayrağı hər bir hərbi hissənin şərəf və qeyrət rəmzidir. Bu bayraq aid olduğu hərbi hissə ilə birlikdə döyüş əməliyyatları bölgəsində olmalıdır. Hərbi hissənin bütün şəxsi heyəti döyüş bayrağını fədakarlıq və mərdliklə qorumalı, onun ələ keçirilməsinə yol verməməlidir. Döyüş bayrağı itirildikdə onun məxsus olduğu hərbi hissə ləğv edilməlidir.

Fotolardan da göründüyü kimi, düşmənin 193-cü desant həmlə taborunun hava endirim komanda birliyinin döyüş bayrağı cəsur Azərbaycan əsgərinin ayaqları altındadır. Bu fotolar bir daha sübut edir ki, əgər Ermənistan ordusu Azərbaycanın əbədi və əzəli torpaqlarından geri çəkilməsə, onun işğal olunmuş ərazilərimizdəki digər hərbi hissə və bölmələrini də eyni aqibət gözləyir.

## Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdən ilk görüntülər

***Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayaraq əks-hücum əməliyyatları nəticəsində işğaldan azad etdiyi ərazilərdən ilk görüntülər yayılıb.***

Görüntülərdə Azərbaycan Silahlı Qüvvələri hərbçilərinin artıq həmin ərazilərdə möhkənləndiyi əks olunub.

Kadrlardan görünür ki, ərazilərdə məhv edilən düşmənin xeyli sayda texnikası, silah-sursatı qalıb.

Hazırda Azərbaycan Ordusu işğal altındakı digər ərazilərin azad edilməsi istiqamətində əməliyyatları davam etdirir.

Xatırladaq ki, uğurlu əks-hücum nəticəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Abdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad olunub. Ağdərə rayonu istiqamətində və Murov dağı silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək, bir sıra strateji yüksəkliklər nəzarətə götürülüb.

Şanlı ordumuzun işğalçı Ermənistana qarşı həyata keçirdiyi əks-hücum əməliyyatlarını qürurla izləyirik. Əminəm ki, tezliklə bayrağımızı Xankəndi və Şuşaya sancacağıq. Biz hər zaman ordumuzun yanındayıq. Allah Azərbaycanın əsgər və zabitlərini qorusun!

## Suqovuşanda Azərbaycan bayrağı dalğalanır

***Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Madagizin erməni işğalından azad olunduğunu elan etdi. "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!".***

Dövlətimizin başçısının Tvitter səhifəsində etdiyi bu paylaşımdan bir qədər sonra isə Madagizin tarixi adını bərpa etdiyini bildirdi: "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır".

Qeyd edək ki, Tərtər rayonunun strateji əhəmiyyətli ərazisi olan Suqovuşan 1994-cü ildə düşmən tərəfindən işğal edilmişdi. Bu ərazinin işğaldan azad olunması ilə Ordumuz mühüm yüksəkliklərə yiyələnmiş oldu. Bu yaşayış məntəqəsi keçmiş Ağdərə rayonu ilə Kəlbəcər rayonu arasındakı şimal yolunun üzərində yerləşir. Buraya yaxın ərazidə ermənilərin əsas hərbi bazalarından biri də yerləşirdi. Suqovuşanın azad edilməsi Ordumuzun əks-hücum əməliyyatlarını daha da genişləndirməyə imkan verəcək.

## Ermənistan ordusunun atıb qaçdığı silah-sursat, döyüş və avtomobil texnikaları

***Xəbər verildiyi kimi, Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülüb.***

AZƏRTAC cəbhə bölgəsinə ezam olunmuş fotomüxbiri Tofik Babayevin çəkdiyi fotoları təqdim edir.

Qeyd edək ki, şanlı Azərbaycan Ordusu oktyabrın 4-də Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndini işğalçılardan azad edib.

## Döyüş mövqelərindən qaçan erməni əsgərlərinə məxsus sənədlər

***Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına davam gətirməyən işğalçı erməni hərbçiləri vahimə içərisində geri çəkilirlər.***

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, Azərbaycan əsgərindən qorxan düşmən hərbi texnikaları ilə yanaşı, şəxsi sənədlərini, o cümlədən hərbi biletlərini və digər əşyalarını da ataraq qaçırlar.

Cəbhənin Füzuli istiqamətində məhv edilən, eləcə də döyüş mövqelərindən qaçan erməni əsgərlərinə məxsus bəzi sənədlərin fotolarını təqdim edirik.

# Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır

***Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. Dövlətimizin başçısının müraciətini təqdim edirik.***

**Prezident İlham Əliyevin xalqa müraciəti**

-Əziz həmvətənlər.

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!

Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir.

Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz – Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını tökü b. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi.

Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

Bu kəndlərin sakinləri, sizə müraciət edirəm, sizin həsrətinizə son qoyulur və bizim digər bütün qaçqın, köçkün soydaşlarımız bilsinlər ki, biz onları da onların dədə-baba torpaqlarına qaytaracağıq. Güc yolu ilə! Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb. Amma demişik ki, bu, bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır. Yəni, buna hesablanmışdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir. İyirmi yeddi il ərzində biz bütün dövrlərdə - danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişdik, ədalətli

mövqe göstərmişdik. Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb. Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq.

Biz demişdik ki, axı bu, danışıqlar predmetinə zidd olan məsələdir. Axı danışıqlarda bizim əsas ümidverici məqamımız o idi və orada göstərilirdi ki, işğal edilmiş torpaqlar mərhələli yollarla Azərbaycana qaytarılacaq. Biz də buna razılıq vermişdik ki, mərhələli yollarla qaytarılsın, sülh yolu ilə qaytarılsın. Bir mərhələdə 5 rayon qaytarılsın, ikinci mərhələdə 2 rayon qaytarılsın, sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıtsınlar, Şuşaya qayıtsınlar, ondan sonra Azərbaycan və erməni xalqları birlikdə yaşasınlar, necə ki, vaxtilə biz yaşamışıq. Bu, ədalətli mövqedir. Bu, beynəlxalq hüququn bütün normalarına uyğun olan bir mövqedir. Biz nə istəmişik ki? Bunu istəmişik və buna haqqımız çatırdı və çatır. Amma nə gördük?! Gördük ki, Azərbaycan xalqının iradəsini sındırmaq istəyirlər. Gördük ki, bizə qarşı yeni müharibə açılır, bizi yeni müharibə ilə hədələyirlər. Gördük ki, iyul ayında heç bir səbəb olmadan bizim Tovuz şəhərimiz və digər yaşayış məntəqələrimiz atəşə tutuldu, hərbçilərimiz həlak oldu, mülki vətəndaş həlak oldu. Gördük ki, avqust ayında diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı zərərsizləşdirildi, saxlanıldı. İndi ifadələr verir, deyir göndərilib ki, terror aktları törətsin. Budurmu danışıqlar prosesinə sadiqlik?! Sonra isə, Ermənistanın baş naziri cəfəng fikirlər ortaya atır, tarixi saxtalaşdırır, öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Bir il bundan əvvəl o, "Qarabağ Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Şuşaya köçürülməsi nə deməkdir?! Yenə də Azərbaycan xalqını təhqir etmək cəhdidir. Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi nə deməkdir?! O deməkdir ki, orada qanunsuz məskunlaşma aparılacaq. Artıq Livandan, başqa yerlərdən erməniləri gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar. Bunlara söz deyən var?! Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara – məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu, bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə əl-ayağa düşmüsünüz? İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur ki, kimsə imkan verməz Azərbaycan Dağlıq Qarabağı fəth etsin. Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!

Ona görə indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!

Ermənistan rəhbərliyi yaxşı düşünsün, hələ ki, gec deyil. Bizə yeddi şərt irəli sürür. Sən kimsən ki, bizə şərt qoyasan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Yıxılıb diz çöküb yalvarırsan ki, atəşkəs bərpa olunsun. Atəşkəs Ermənistanın baş nazirinin xahişi ilə 2 il ərzində bərpa olunmuşdu. Məndən xahiş etmişdi ki, daxildə vəziyyət ağırdır, oradan-buradan məni sıxırlar, mənə vaxt verin, mən bu məsələni həll edəcəyəm, mən yeni fikirlərlə gəlmişəm. Mən keçmişdə nə olub hamısının üstündən xətt çəkmişəm, imkan verin, vaxt verin. Dedim yaxşı. Nə oldu? Bir ildən sonra çıxış edib deyir ki, "Qarabağ Ermənistandır". İndi desin "Qarabağ Ermənistandır". İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam.

Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu.

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan ordusunun məhv edilmiş döyüş texnikasının siyahısını açıqlayıb

***Gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrindən təmizləyib. Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi texnikası və digər döyüş vasitələri məhv edilib.***

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, sentyabrın 27-dən oktyabrın 7-də saat 05.30-dək düşmənin ümumi itkiləri aşağıdakı kimidir:

- 250-dək tank və digər zirehli texnika;
- 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 60-dək hava hücumundan müdafiə vasitəsi;
- 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 8 silah-sursat anbarı;
- 150-dək avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

## Üçrəngli bayrağınla məsud yaşa!

***Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq cəbhənin bütün istiqamətlərində uğurlu əks-hücum əməliyyatı həyata keçirən Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurması, bir neçə yaşayış məntəqəsini işğaldan azad etməsi xalqımızın Silahlı Qüvvələrimizin hərbi qüdrətinə inamını daha da artırıb.***

Ölkəmizin bütün bölgələrində, o cümlədən paytaxt Bakıda Azərbaycan Ordusuna dəstək ifadə olunur, vətəndaşlarımız Vətən torpaqlarının işğalçılardan azad edilməsi uğrunda döyüşmək üçün ordu sıralarına yazılmaq məqsədilə müvafiq qurumlara böyük ruh yüksəkliyi ilə müraciət edirlər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" 2020-ci il 28 sentyabr tarixli Sərəncamının icrası ilə bağlı təsdiq edilmiş plana uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə yola salınması ölkə ictimaiyyətinin ruh yüksəkliyi şəraitində həyata keçirilir. Cəmiyyətimizdə hökm sürən sarsılmaz xalq-ordu birliyi, ruh yüksəkliyi bir daha göstərir ki, xalqımız işğal altındakı ərazilərimizi düşməndən azad etmək üçün ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlarla qürur duyur və ümumi qələbəmiz naminə nəbzi Vətən ilə vuran Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin ətrafında sıx birləşib.

Bu günlərdə Azərbaycanın bütün bölgələri kimi, paytaxt Bakının da küçə və meydanları vətəndaşlar tərəfindən üçrəngli dövlət bayrağı ilə bəzədilib. Şəhərin küçə, prospekt və meydanlarında əllərində dövlət bayraqları tutan vətəndaşlarımız Vətən uğrunda canlarından keçməyə hazır olduqlarını və işğalçı Ermənistan qoşunlarının tezliklə doğma torpaqlarımızdan qovulacaqlarına əminliklərini bildirirlər.

## ADDA-nı seçənlər arasında 600-dən yuxarı bal toplayan gənclər də var

***2020/2021-ci tədris ili üçün Azərbaycan Dövlət Dəniz Akademiyasına tələbə qəbulu haqqında statistika elan edilib.***

Nəticələrə əsasən yeni tədris ili üçün Nazirlər Kabineti tərəfindən əvvəlcədən təsdiqlənmiş 200 mümkün plan yerindən 194-ə tələbə qəbul olub.

Bu il ADDA-ya qəbul olunan tələbələrdən 2 nəfər 600-dən yuxarı bal toplayıb.

674,5 və 612,9 bal toplayan abituriyentlər seçimlərini "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası (ingilis dilində tədris) ediblər.

Abituriyentlərdən 17 nəfər 500-599, 47 nəfər 400-499, 107 nəfər 300-399, 21 nəfər isə 200-299 aralığında bal toplayaraq ADDA-nın tələbəsi olmaq şansını qazanıb.

7 nəfərdən başqa qalan tələbələr dövlət hesabına təhsil alacaqlar.

Xatırladaq ki, 2020/2021-ci tədris ili üçün ADDA-nın 4 ixtisası üzrə - "Dəniz naviqasiyası mühəndisliyi"- 80 yer, "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi" - 15 yer, "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" - 80 yer, "Elektrik və elektronika mühəndisliyi" - 25 yer nəzərdə tutulmuşdur.

Boş qalan 6 yer "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasındandır (rus dilində tədris).

## Qızılağac Milli Parkı Xəzər dənizində ilk mühafizə olunan dəniz ərazisi hesab edilir

***Sentyabrın 26-da IDEA İctimai Birliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Dövlət Turizm Agentliyinin nümayəndələri Qızılağac Milli Parkının yaradılmasının ildönümünə həsr olunmuş Xəzər dənizinin Kiçik Qızılağac körfəzinə körpə çəkikimi balıqların buraxılması mərasimində iştirak ediblər.***

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən birgə həyata keçirilən "Zəngin hövzələr" layihəsi çərçivəsində çəki, ağ amur və qalınalın balıq körpələri Kiçik Qızılağac körfəzinə buraxılıb.

Məlum olduğu kimi, son onilliklər ərzində ölkəmizin su hövzələrindəki balıq növlərinin təbii populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri nəticəsində məhvolma təhlükəsi həddinə çatıb.

Bununla əlaqədar, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanın və Qafqaz regionunun su faunasının qorunması və bərpası üzrə bir sıra mühüm təşəbbüslər həyata keçirilir.

"Zəngin hövzələr" layihəsi balıq növlərinin təbii populyasiyasının artırılması, balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıq körpələrinin təbii mühitə buraxılması, eləcə də daxili su hövzələrində çirkləndirilmənin azaldılması, qanuni və sivil qaydalarla balıq ovunun təşviqi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Qeyd edilməlidir ki, 2018-ci il sentyabrın 26-da yaradılmış Qızılağac Milli Parkı Qızılağac Dövlət Təbiət Qoruğunu və bütöv Qızılağac körfəzini ehtiva edir və Xəzər dənizində ilk mühafizə olunan dəniz ərazisi hesab edilir.

Qızılağac Milli Parkının zəngin biomüxtəlifliyini nəzərə alaraq, 2019-cu ilin nöyabr ayında IDEA İctimai Birliyinin təşəbbüsü ilə sözügedən milli park dünya sularının xilası üçün ümid yeri (Hope Spot) kimi seçilib.

Ümid yerləri "Mission Blue" təşkilatının beynəlxalq mühafizə kampaniyası çərçivəsində bəyan edilən, ekoloji baxımdan unikal olan dəniz əraziləridir. Ümid yerlərinin elan edilməsi okeanların mühafizəsi üzrə qlobal ictimai dəstəyə nail olunması və getdikcə daha geniş su ərazilərinin mühafizə altına alınması məqsədini daşıyır.

Qızılağac Milli Parkına aid su ərazisi Xəzər dənizində ilk mühafizə olunan dəniz ərazisidir. Onun mühafizəsi dünyanın ən çox nəsli kəsilmək təhlükəsi ilə üzləşən balıq növlərinin yaşaması üçün zəruridir.

IDEA İctimai Birliyi və ETSN vətəndaşları balıq ehtiyatlarının qorunmasında, qadağan olunmuş üsullarla balıq ovunun qarşısının alınmasında yaxından iştirak etməyə, məsuliyyətli balıq ovlanmasının təbliğinə və təşviqinə dəstək verməyə çağırır.

## ADDA-nın prorektoru Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki seçilib

***Azərbaycan Dövlət Dəniz Akademiyasının tədris və tərbiyə işləri üzrə prorektoru, texnika elmləri doktoru, professor Zahid Şərifov Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki seçilib.***

Türkiyədən Zahid Şərifova fəxri adın təsdiqini bildirən diplom göndərilib.

Zahid Şərifov Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmiqayırma və gəmi təmiri" kafedrasında 1997-2003-cü illərdə dosent və 2003-cü ildən 2010-cu ilədək həmin kafedranın müdiri və professoru vəzifəsində işləyib. 2010-cu ildən 2014-cü ilədək "Dəniz texnikası və texnologiyası" fakültəsinin dekanı, 2014-cü ildən 2017-ci ilin iyun ayınadək Azərbaycan Dövlət Dəniz Akademiyasının elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektoru vəzifələrini icra edib. Hazırda Azərbaycan Dövlət Dəniz Akademiyasının tədris və tərbiyə işləri üzrə prorektorudur.

Zahid Şərifov 1992-ci ildə namizədlik dissertasiyasını, 2004-cü ildə isə materialşünaslıq sahəsində doktorluq dissertasiyasını müdafiə edib. 2010-cu ildə Ali Attestasiya Komissiyası tərəfindən "Professor" elmi adına layiq görülüb.

Qeyd edək ki, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası türk dünyasında və türk icmalarının yaşadığı ölkələrdə türk dilini, türk mədəniyyətini, türk tarixini, türk ədəbiyyatını öyrənmək, araşdırmaq və yaymaq məqsədi ilə yaradılmış və davamlı olaraq inkişaf etmiş beynəlxalq elmi təşkilatdır.

Akademiya dünyanın 30-dan artıq ölkəsinin nüfuzlu universitetləri, araşdırma institutları, akademiyaları, elmi mərkəzləri, fondları və digər qurumları ilə qarşılıqlı əlaqələr yaradıb.

Akademiyanın ABŞ, Fransa, İtaliya, İngiltərə, Almaniya, Belçika, Rumıniya, İsveçrə, Hollandiya, İran, Rusiya, Suriya, İordaniya, Misir, Ukrayna, İraq, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırgızıstan, Bolqarıstan, Moldova, Kosova, Makedoniya, Yunanıstan, Çin kimi ölkələrdə rəsmi təmsilçilikləri fəaliyyət göstərir.

***Musa ƏLİYEV***

## "Xəzər regionu və onun qlobal iqtisadiyyatda rolu"

***Azərbaycanın Energetika naziri Pərviz Şahbazov Almaniyanın paytaxtı Berlində keçirilən "Birinci Xəzər Avropa Forumu"nda "Xəzər regionu və onun qlobal iqtisadiyyatda rolu" mövzusunda videoformatda çıxış edib.***

Energetika Nazirliyindən bildirilib ki, nazir çıxışında zəngin enerji resursları, enerji istehlak edən iki əsas bazar - Avropa ilə Asiya arasında, kontinental marşrutların kəsişməsində yerləşməsi ilə Xəzər regionunun hər zaman olduğu kimi gələcəkdə də regional və qlobal güclərin geosiyasi maraqları dairəsində qalacağını bildirib. Regionun dünya iqtisadiyyatının tərkib hissəsinə çevrilməsində isə Azərbaycanın müstəsna rolundan bəhs olunub.

"Xəzərin enerji resursları yalnız Azərbaycanın təşəbbüsü olan boru kəmərləri ilə qərbə yönəldilib. İstismara verilməndən indiyə kimi bu kəmərlər vasitəsilə Azərbaycan mənşəli təxminən 515 milyon ton neft, 86 milyard kubmetrdən isə çox qaz nəql olunub. İlin sonuna kimi Cənub Qaz Dəhlizinin tam istismara verilməsi isə Xəzər regionu növbəti dəfə Azərbaycan vasitəsilə Avropanın enerji təchizatının şaxələndirilməsində və enerji təhlükəsizliyinin təminatında mühüm faktora çevirəcək", - deyə nazir qeyd edib.

Avropanın Xəzərlə enerji bağlantısının davamlılığını strateji zərurət kimi qiymətləndirən nazir, Azərbaycanın Xəzəryanı ölkələrlə Avropa arasında da mühüm təşəbbüslər üçün etibarlı körpü olduğunu deyib. Bildirilib ki, ötən il Azərbaycanın ümumi ticarət dövriyyəsində Xəzəryanı ölkələrin payı 18 faiz, Avropa İttifaqı ölkələrinin isə payı 39 faizə yaxın olub. Azərbaycan beynəlxalq nəqliyyat dəhlizləri və infrastrukturları vasitəsilə də regionun qlobal iqtisadiyyatda rolunun möhkəmlənməsinə töhfələr verir. Belə ki, cari ilin ilk 6 ayında daşınmış tranzit yüklərin həcmi 2019-cu ilin eyni dövrü ilə müqayisədə Bakı-Tbilisi-Qars dəmir yolu ilə 4,5 dəfə çox, "Şərq-Qərb" dəhlizi ilə 15 faiz artımla 3,5 milyon tondan çox olub. "Şimal-Cənub" marşrutu üzrə yüklərin tranzitinin həcmində isə 13 faiz artım qeydə alınıb. Ümumən, bu ilin 6 ayında Azərbaycan ərazisindən keçən tranzit daşımalarında qeyri-neft sektoru üzrə 33 faiz artım olub.

P.Şahbazov Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin isə regionda sabitlik və təhlükəsizlik üçün böyük təhdid doğurduğunu xüsusilə diqqətə çatdırıb. Ermənistanın son vaxtlar regionu qərblə birləşdirən Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan boru kəmərləri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və digər xətlərin keçdiyi Tovuz bölgəsində hərbi əməliyyat təxribatları bunun bariz nümunəsi kimi qeyd edilib: "Sentyabrın 27-dən isə Ermənistan planlaşdırılmış hərbi təxribata əl ataraq növbəti dəfə təcavüzkar siyasətinə sadiqliyini nümayiş etdirdi. Ermənistan sülh danışıqları prosesini dayandırmaqla bir daha göstərdi ki, regional inkişaf layihələrindən özünü təcrid seçimində israrlıdır, regionun daim təhlükə zonası kimi qalmasında maraqlıdır. Bütün enerjisini, imkanlarını dünyada inkişafa, sabitliyə yönəldən, nailiyyətlərin davamlılığında maraqlı bir ölkə olaraq bizim əsas istəyimiz problemin sülh yolu ilə həlli, ədalətin təminidir. Ermənistanın bu həqiqəti anlaması üçün 30 illik müddət kifayət qədər böyük bir zaman idi. Lakin Ermənistan ona verilən fürsəti ölkəsi, regionumuz və dünya üçün lazımınca dəyərləndirə bilmədi. Ermənistanın işğalı və təcavüzü davam etdirmək siyasəti isə yalnız Azərbaycana qarşı yönəlməyib, həm də regional inkişaf və təhlükəsizliyi hədəfə alıb. Ona görə də bölgədə təcavüzkarlığın dayandırılmasına çalışmalıyıq", - deyə nazir əlavə edib.

## Xalqımıza qürur hissi yaşadan əsgərlərimizə öz duyğularınızı kağız və qələm vasitəsilə bildirin

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərpoçt" MMC vətəndaşları xalqımıza qürur və qalibiyyət hissi yaşadan əsgərlərimizə öz duyğularını kağız və qələm vasitəsilə bildirməyə çağırır.***

Nazirlikdən bildirilib ki, Azərbaycanın yeganə milli poçt operatoru "Azərpoçt" Azərbaycan Silahlı Qüvvələrinə mənəvi dəstək olaraq "Əsgərə məktub" layihəsi çərçivəsində məktub yazmaq ənənəsinə sadiq qalaraq öz hisslərini kağız üzərinə köçürməyi və Ordumuza ismarlamağı tövsiyə edir. Məqsəd Azərbaycan vətəndaşının onu qələbə xəbərləri ilə sevindirən əsgərinə, Ordusuna ehtiram və diqqətini kağıza köçürüb igid əsgərlərimizə çatdırmaqdır.

Vətəndaşlar "Azərpoçt" MMC-nin bütün respublika üzrə poçt şöbələrinə və "Şəbəkə" xidmət mərkəzlərinə yaxınlaşaraq əsgərlərimizə məktub göndərə bilərlər. Göndərilən hər bir məktub ön cəbhədə xidmət edən əsgərlərimizə ödənişsiz çatdırılacaq.

Qeyd edək ki, Azərbaycan Ordusu sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını alaraq əks-hücum əməliyyatları həyata keçirir. Uğurlu əməliyyatlar nəticəsində işğal altındakı bir sıra ərazilərimiz azad olunub. Döyüşlərdə əldə etdiyimiz uğurlar və müxtəlif istiqamətdə hakim mövqelərin azad olunması Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş ruhunu və qələbə əzmini daha da artırır.

## "Castoro Sei" gəmisi gündəlik orta hesabla 1,2 kilometr boru düzüb

***Azərbaycan təbii qazının TAP boru kəməri ilə İtaliyaya nəqlinin cari ilin sonunadək başlaması gözlənilir.***

Bu barədə TAP-ın icraçı direktoru Luca Schieppati "Italian Energy Summit 2020"də deyib. O bildirib ki, Azərbaycan qazını Avropaya çatdıracaq TAP boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla təxminən 98 faizi yekunlaşıb. İlin sonunadək qaz nəqli mümkün olacaq və nəhayət biz Cənub Qaz Dəhlizini açacağıq.

"Hazırda Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ bölgəsindəki gərginlik TAP-la təbii qaz tədarükünə hər hansı risk yaratmır. Çünki dəhliz ən kritik ərazidən uzaqdır. Boru kəmərinin inşasının ölkələri birləşdirəcək bir element olduğuna inanıram", - deyə L.Schieppati qeyd edib.

Qeyd edək ki, TAP boru kəmərinin tikintisi mərhələsini başa çatdırmağa yaxınlaşır. Kommersiya istismarına başlamağa hazırlıq, sınaq və istismaravermə mərhələsi çərçivəsində boru kəmərinin Yunanıstan-Türkiyə sərhədindən Albaniyanın Fier şəhərindəki kompressor stansiyasına qədər olan hissəsi təbii qazla doldurulub.

Boru kəmərində son qaynaq yekunlaşıb. Bu da o deməkdir ki, TANAP boru kəmərinə qoşulan hissədən İtaliyadakı qəbul terminalınadək 878 kilometrlik boru kəməri artıq birləşib. Bu, Cənub Qaz Dəhlizinin açılması istiqamətində daha bir mərhələdir.

İyunda TAP-ın Adriatik dənizindən keçən 105 kilometrlik hissəsinin inşası müvəffəqiyyətlə tamamlanıb. Bu mərhələ "Saipem" şirkətinin "Castoro Sei" sualtı borudüzən gəmisi tərəfindən 36 düymlük boruların dənizdə quraşdırılması, Albaniya sularındakı qurudakı infrastrukturla dəniz üstü bağlantının qurulması, həmçinin xəttin təhlükəsizliyi və əməliyyat üçün hazır olmasını təmin etmək üçün hidrosınaqları əhatə edib. İtaliya və Albaniya sahillərini birləşdirən fəaliyyətlər bu il yanvarın ortalarında boruların "Castoro Sei" gəmisi ilə qaynaqlanması və sınaqdan keçirildikdən sonra İtaliya sahillərindən Albaniyaya doğru Adriatik dənizinin dibinə yerləşdirilməsi ilə başlayıb. COVID-19 pandemiyası nəzərə alınaraq TAP və onun podratçısı "Saipem" bütün əməkdaşların sağlamlığını və təhlükəsizliyini qorumaq məqsədilə geniş tədbirlər həyata keçirib.

Boru kəmərinin dəniz hissəsində ümumi çəkisi 100 min ton ağırlığında 36 düym diametrli təxminən 9000 boru istifadə edilib. Borular Adriatik dənizinin dibi ilə çəkilib: İtaliya sularında 25 kilometr, beynəlxalq sularda 43 kilometr və Albaniya sularında 37 kilometr. TAP-ın ən dərindən keçən hissəsi dəniz səviyyəsindən təxminən 810 metrdir. "Castoro Sei" gəmisi gündəlik orta hesabla 1,2 kilometr və bir gündə isə maksimum 2,8 kilometr boru düzüb.

TAP layihəsi çərçivəsində Yunanıstanda sınaq işləri də tamamlanıb. Mayın 20-dən isə təbii qazın TAP-ın Albaniyadakı 4 kilometrlik hissəsinə - Yunanıstan-Albaniya sərhədində və Bilisht regionunun yaxınlığındakı ölçmə stansiyasına nəqlinə başlanılıb. Bu hissə istifadəyə verildikdən sonra qazın qarşıdakı həftələrdə və aylarda boru kəmərinin Albaniyadakı digər hissələrinə tədricən daxil edilməsi həyata keçirilir.

Ötən ilin noyabrında TAP-ın Yunanıstan hissəsində sınaq məqsədilə qaz nəqlinə başlanılmış, Evros çayı ilə Kipoidəki kompressor stansiyası arasında boru kəmərinin 2 kilometrlik hissəsinə təbii qaz qəbul edilmişdi. Bu, boru kəmərinin istismara verilməsi prosesinin ilkin mərhələsi olmuşdu. Daha sonra sınaq işləri boru kəmərinin Yunanıstan hissəsinin hamısını əhatə etmişdi. Həmin prosesin məqsədi boru kəməri infrastrukturunun tamamilə təhlükəsizliyini və işlər başa çatdıqdan sonra istismara hazır olmasını, eləcə də milli və beynəlxalq təhlükəsizlik, həmçinin istismar standartlarına uyğun olmasını təmin etməkdir. Təbii qazın boru kəməri sisteminə daxil edilməsi "Şahdəniz-2" qazının Avropaya tədarükünün başlanğıcı üzrə növbəti mərhələdir. TAP vasitəsilə ticari məqsədlə qaz nəqlinin 2020-ci ilin oktyabrında, yəni İtaliyaya qədər olan hissənin tam istifadəyə veriləcəyi və sınaqdan keçiriləcəyi vaxtda gözlənilir.

Xatırladaq ki, üç ötürücü sistem operatoru – TAP AG, "Snam Rete Gas" və "DESFA" davam edən bazar sınaqları üzrə məcburi təklif mərhələsinin 2021-ci ilin iyul ayında baş tutacağını elan edib. Hər 3 operator son bazar şərtlərini nəzərə alaraq, enerji bazarlarının bərpa olunmasına daha çox vaxt ayırmaq istəyir. Ötən il iyulun əvvəlində TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

TAP-ın quru hissəsində, Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların hamısı torpağa basdırılıb. Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşası tamamlanıb. Kompressor stansiyaları ilə yanaşı, Albaniyanın şərqində, Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də yekunlaşıb. İtaliyadakı təbii qazın qəbulu terminalının isə tikinti işlərinin təqribən 70 faizi başa çatıb. TAP-ın Yunanıstan hissəsində torpaq örtüyünün bərpası işləri yekunlaşır. İlk mərhələ istifadəyə verildikdən sonra təbii qaz tədricən boru kəmərinin Yunanıstan marşrutunun digər hissələrinə, eləcə də Albaniya və İtaliyaya mərhələli şəkildə nəql edilməyə başlanacaq.

TAP-ın quru hissəsinin inşası üzrə İtaliyada (8 kilometr) boruların tikintisinə başlanılıb. Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası aprelin sonunda turist fəaliyyətləri və sahilboyu ətraf mühitə heç bir təsir və ya müdaxilə olmadan tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin tamamlanması üzrə işlər davam edir. Həmçinin TAP-ın İtaliyadan keçəcək təxminən 8 kilometrlik hissəsində boruların 3 kilometri xəndəyə endirilib.

Yunanıstan, Albaniya və İtaliyada boru kəməri marşrutunun 99 faizində torpaq örtüyü bərpa edilib. Layihə üzrə kapital xərclər 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 810 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

## Xarici sularda Azərbaycan bayrağı altında üzən "Üzeyir Hacıbəyli" gəmisi təmirdən sonra yenidən istismara qaytarılıb

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına aid və beynəlxalq sularda üzən "Üzeyir Hacıbəyli" quru yük gəmisinin əsaslı təmiri yekunlaşıb.***

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda gəminin baş və köməkçi mühərrikləri, mexanizmləri (nasosları) təmir olunub. Eyni zamanda, gəmidə boru quraşdırma, elektrik quraşdırma, avtomatika və gövdə-qaynaq işləri görülüb.

Bundan başqa, gəminin sualtı və suüstü hissələri tam təmizlənərək rənglənib, yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsində təmir olunub.

Təmir başa çatdıqdan sonra gəmi müvafiq yoxlanışdan uğurla keçib və yenidən xarici sulara yola salınıb. Belə ki, "Üzeyrir Hacıbəyli" quru yük gəmisi oktyabrın 1-də Türkmənistanın Bektaş limanından yük götürərək Türkiyənin Gebze limanına doğru yola düşüb.

Qeyd edək ki, "Üzeyir Hacıbəyli" gəmisi 2014-cü ildən üçrəngli bayrağımız altında Xəzərdənkənar sularda istismar olunur. Gəminin uzunluğu 108,33, eni 16,74 metrdir, yükgötürmə qabiliyyəti isə 5200 tondur.

## Təmirdən sonra "General Aslanov" quru yük gəmisi Bektaş limanından Türkiyənin Gebze limanına səfər edəcək

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına aid "General Aslanov" gəmisi 2016-cı ildən üçrəngli bayrağımız altında xarici sularda üzürdü.***

Uzunluğu 108,33 metr, eni 16,74 metr, yükgötürmə qabiliyyəti 5200 ton olan quru yük gəmisi "Bibiheybət" Gəmi Təmiri Zavodunda əsaslı təmir edilib. Burada gəminin baş və köməkçi mühərrikləri, mexanizmləri təmir olunub. Gəmidə yük anbarlarının qapaqları, qapaqların qaldırılması üçün istifadə olunan yük kranı elektrik idarəetmə sistemi ilə birlikdə sazlanıb. Eyni zamanda, gəmi üzrə boru quraşdırma, elektrik quraşdırma, avtomatika və gövdə qaynaq işləri görülüb.

Bundan başqa, gəminin sualtı və suüstü hissələri təmizlənərək rənglənib, yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsində təmir olunub.

Təmir başa çatdıqdan sonra gəmi müvafiq yoxlanışdan uğurla keçib və dənizçilərin ixtiyarına verilib.

"General Aslanov" quru yük gəmisi yenidən Xəzərdənkənar sularda yükdaşımalara cəlb edilib. Gəmi Türkmənistanın Bektaş limanından yük götürərək Türkiyənin Gebze limanına yola düşəcək.

## "Caspian Marine Services" Azərbaycan Respublikasının Silahlı Qüvvələrə Yardım Fonduna ianə edib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) alyans tərəfdaşı olan "Caspian Marine Services" (CMS) işğal altında olan torpaqlarımızın azadlığı, ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizə aparan şanlı ordumuza dəstək məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrə Yardım Fonduna 1 milyon manat ianə edib. Bununla yanaşı, şirkətin əməkdaşları könüllü olaraq öz əmək haqlarından Silahlı Qüvvələrə Yardım Fonduna 55 min manat pul vəsaiti köçürüblər.

## Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Silahlı Qüvvələrə Yardım Fonduna dəstək olub

***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna vəsait ayırıb.***

Nazirlikdən bildirilib ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin aparatı (nazir, müavinlər və kollektiv), eləcə də nazirliyin strukturuna daxil olan və daxil olmayan, tabeliyindəki qurumların rəhbərliyi və əməkdaşları könüllü qaydada öz aylıq vəzifə maaşlarını ordumuza maliyyə dəstəyi olaraq ianə ediblər. Məqsəd düşmənin hərbi təxribatının qarşısının alınması, ölkəmizin ərazi bütövlüyünün, eyni zamanda, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri əks-həmlə tədbirlərinin həyata keçirilməsinə dəstək göstərməkdir.

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə Silahlı Qüvvələrimizin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb.




## BMT Türkiyə ilə Liviya arasındakı su sərhədi anlaşmasını qeydiyyata alıb

***Türkiyə ilə Liviya hökumətləri arasında Aralıq dənizində dövlət su sərhədinin müəyyən edilməsinə dair imzalanan anlaşma BMT tərəfindən qeydiyyata alınıb.***

Bu barədə Anadolu agentliyi məlumat yayıb.

BMT tərəfindən Liviyada tanınan keçid hökuməti ilə Türkiyə arasında sıx əməkdaşlıq mövcuddur. Tərəflər Şərqi Aralıq dənizində dövlət su sərhədinin müəyyən edilməsi, hərbi, müdafiə, humanitar, iqtisadi və digər mühüm sahələrə dair vacib anlaşmalar əldə ediblər.

***Sabir Şahtaxtı***

## Baş Prokurorluq Ermənistanın qadağan olunan bombadan istifadə edərək Bakı-Tbilisi-Ceyhan boru kəmərini hədəfə alması ilə bağlı məlumat yayıb

***Təcavüzkar Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyasının və Konvensiyaya olunmuş əlavə Protokolların tələblərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.***

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Silahlı Qüvvələrinin silahlı birləşmənin üzvləri mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə oktyabrın 6-da saat 18:30 radələrində Azərbaycan Respublikasının Yevlax rayonunun silahsızlaşdırılmış zonaları, habelə hərbi hədəf olmayan, aydın görünən, fərqləndirilən və xam neft və kondensat ixrac edən kəmərləri hədəfə almaqla, eləcə də döyüşlərdə iştirak etməyən, hərbi əməliyyatlar aparılan ərazidən ən azı 50 kilometrdən artıq məsafədə yerləşən Yevlax rayonunun Aran qəsəbəsi istiqamətində beynəlxalq hüquqla qadağan edilmiş silahları, müharibə vasitələrini və üsullarını tətbiq edib mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara raketlə hücum etməklə 9M525 qəlpəli "Smerç" nəslindən olub böyük dağıdıcı qüvvəyə malik, içərisində 300 ədəd 9N235 bombacıqları olan reaktiv yaylım atəşli raketdən atəş açıb. Raketin Azərbaycan Silahlı Qüvvələri tərəfindən havada zərərsizləşdirilməsi nəticəsində onun içərisində olan bombacıqlardan bir hissəsi Yevlax rayonunun Aran qəsəbəsindən keçən, diametri 42 düym olan Cənub Qafqaz Genişlənmiş Boru kəmərinin boru xəttinin üzərinə, bir hissəsi həmin ərazidən keçməklə xam nefti Qara dəniz sahilinə nəql edən Qərb İxrac Boru kəmərindən 120 metr məsafəyə, digər hissələri isə həmin qəsəbədən keçən Bakı-Tbilisi-Ceyhan neft kəmərindən 100 metr məsafəyə səpələnib. Bununla da neft ixrac edən və dağıdılması əhəmiyyətli əmlak ziyanının vurulmasına səbəb ola bilən böyük ötürücülü xam neft və kondensat ixrac edən kəmərlər üçün təhlükəli şərait yaratmaqla infrastruktur obyektlərinə və digərlərinə məxsus xüsusilə külli miqdarda əmlakların qəsdən məhv edilməsinə cəhd olunub, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılaraq aparılıb, terrorçuluq cinayəti törədilib.

Göstərilən cinayət faktları ilə bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən oktyabrın 6-da Cinayət Məcəlləsinin 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.1, 116.0.6, 116.0.7 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 117.2 (silahlı münaqişə zamanı cinayətkar əmr vermə), 214.2.1, 214.2.3 (terrorçuluq), 218.3 (cinayətkar birlik (təşkilat) yaratma), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) və 186.3-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla əmlakı qəsdən məhv etmə və ya zədələmə) maddələri ilə cinayət işi başlanıb. İstintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində zəruri istintaq tədbirləri və prosessual hərəkətlər həyata keçirilir.

Ermənistanın işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə Baş Prokurorluq tərəfindən bütün beynəlxalq qurumlara müraciət ediləcək.

## Şans amilinin biznes proseslərinə təsiri

***Əsasən postsovet ölkələrində biznes proseslərinə dair geniş yayılmış bir stereotip bu gün də tədqiqatçıların marağını cəlb edir. Belə ki, spesifik seqmentə mənsub insanların təhtəlşüurunda yerləşmiş hipotezə görə, sahibkarlıq fəaliyyətinin uğur dərəcəsi şans, bəxt, yaxud tale adlandırılan amillərdən birbaşa asılıdır. İstanbul Universitetinin İdarəetmə fakültəsinin bakalavrı Nicat Muradzadənin məqaləsində şans amilinin biznes proseslərinə təsirindən danışılır.***

Nəzəri cəhətdən sahibkarlıq və ya biznes, mənfəət əldə etmək məqsədilə digər iqtisadi subyektləri bir sıra mürəkkəb funksiyaların inteqrasiyasından hasil olan mal və xidmətlərlə təmin etmək fəaliyyətidir. Tərifdən də göründüyü kimi biznes bir proses kimi olduqca çoxşaxəlidir və müxtəlif funksiyaların effektiv fəaliyyətinin vəhdəti sayəsində müvəffəqiyyətli ola bilər. Hərçənd, uğuru şərtləndirən başlıca amil, qeyd etdiyim kimi, funksiyaların təkmil fəaliyyəti olsa da digər amillər də biznes tsiklində əhəmiyyətli yerə malikdir. Bu baxımdan, sözügedən proseslərdə şans amilinin rolu tədqiq edilməlidir.

Özünün səciyyəvi xüsusiyyətlərinə görə onlarla növ biznes tipi mövcuddur. Lakin kateqoriyasından asılı olmayaraq, istənilən sahibkarlıq subyektinin uğurlu və ardıcıl fəaliyyət göstərməsi üçün labüd olan bir qisim funksiyalar var. İdarəetmə üzrə kifayət qədər mötəbər alimlər hesab olunan Siril O'donnel və Harold Kuntz 1959-cu ildə qələmə aldıqları "İdarəetmənin əsasları: İdarəçilik funksiyalarının təhlili" adlı əsərdə idarəetmənin əsas funksiyalarını planlaşdırma, təşkiletmə, komplektləşdirmə (insan resurslarına aiddir), istiqamətləndirmə və nəzarət olaraq xarakterizə ediblər.

Şübhəsiz ki, gündəlik həyatda olduğu kimi, biznesdə də sistemsiz risklər mövcuddur. Yuxarıda qeyd edilən funksiyalar mahiyyətcə sözügedən risklərin standartlaşdırılmasına və bütövlükdə biznes subyekti üçün həmin risklərin mümkün təsirlərinin neytrallaşdırılmasına xidmət edir. Bu məqamda təbii sual yaranır - Şans bu prosesin harasında dayanır? Cavab sadədir, bəzi fövqəladə vəziyyətlərdə tale insanın üzünə gülür və biznes kontekstində sahibkar, müstəqil və kortəbii inkişaf edən ekzogen proseslərin fonunda müəyyən gəlir əldə edə bilir. Şübhəsiz ki, bu epizodik hadisənin ardıcıl xarakter daşıması qeyri-mümkündür. Belə olan halda, xidməti fəaliyyətinin əsaslarını ehtimal nəzəriyyəsinin sərhədlərini aşaraq formalaşdıran biznes subyektləri ziyan və itki ilə üzləşəcək.

"Harvard Business Review" jurnalının ötən saylarından birində, inkişaf etməkdə olan ölkələrdə özəl sektorun vəziyyəti təhlil edilərkən əsas problemlər sırasında şirkətlərin şanslar yaradıb, onları möcüzəyə çevirə bilməməsi göstərilirdi. Hərçənd, "şans yaratmaq", yaxud "möcüzəyə çevirmək" kimi terminlər bir qədər yerli biznes ekosisteminin əksər komponentləri üçün yad olsa da, ələlxüsus, Birləşmiş Ştatlarda bu məqama əlahiddə diqqət yetirilir. Belə ki, şans yaratmaq dedikdə, əsasən dayanıqlı innovasiyanın, effektiv marketinq metodologiyasının, rezilyent iyerarxik sxemlərin proseslərə inteqrasiyası və bütövlükdə bu ünsürlərin bir vahid kimi proseslərin hərəkətverici qüvvəsi halına gəlməsi nəzərdə tutulur. Şansı möcüzəyə çevirmək isə daha çox əldə olunan fiziki və qeyri-fiziki üstünlüyü davamlılaşdıraraq biznes subyektinə rəqabət immuniteti aşılamağı ifadə edir. Buradan aydın olur ki, qeyri-müəyyənliyə sistematik yanaşma nəticə etibarilə yeni şansların ortaya çıxmasına və onların davamlılaşmasına, son mərhələdə isə biznes subyektinin mənfəətinin maksimallaşmasına rəvac verə bilər.

Fikrimcə, biznes mühitini ehtiva etdiyi elementlər baxımından şanslar toplusu adlandırmaq mümkündür. Burada əsas məqam şansa yanaşmanın hansı aspektdən olmasıdır. Hərgah, bir şirkət özünün inzibati resursunun əhəmiyyətli bir hissəsini tədqiqat və tərəqqi üçün xərcləyirsə, o zaman, həmin şirkət üçün şans ardıcıl xarakter alaraq gəlirini maksimallaşdıracaq. Bununla birlikdə, məsələlərə primitiv yanaşmaqla bütün fəaliyyətini praktik və elmi əsaslara söykənməyən, sırf fantaziya məhsulu olan ehtimallar üzərində quranlar üçün isə şans təkistifadəlik və təhlükəli məfhum olaraq qalacaq.

## Amerikanı kəşf edən səyyah Xristofor Kolumbun parkda qoyulan abidəsi sökülüb

***ABŞ-ın Kamden şəhərinin (Nyu-Cersi ştatı) hakimiyyət orqanları Amerikanı kəşf edən səyyah Xristofor Kolumbun parkda qoyulan abidəsini söküb.***




CBS telekanalı xəbər verir ki, yerli sakinlər Kolumbun abidəsinin parkdan götürülməsi xahişi ilə dəfələrlə şəhər administrasiyasına müraciət edib. Nəticədə abidə postamentdən götürülüb və hissələrə parçalanıb. Uzun zamandır abidənin sökülməsini istəyən şəhər əhalisi bu tələbə dəstək üçün marş keçirməyi planlaşdırırdı. Tədbir təşkilatçılarının sözlərinə görə, hakimiyyət onların bu planından xəbər tutaraq abidəni sökmək qərarına gəlib.

"Əvvəllər də bu abidənin götürülməsi barədə çağırışlar olub. Bu, çoxdan gözlənilən məsələ idi, lakin indi biz irqçilik nişanələrini daşıyan və ədalətsizliyi təcəssüm etdirən simvolların yenidən nəzərdən keçirilməsi üzrə plan hazırlamalıyıq", - deyə əhalisinin əksəriyyəti Afrika əsilli amerikalılardan təşkil olunan Kamden şəhərinin meri Frenk Moran bildirib.

Bir qədər əvvəl etirazçılar Xristofor Kolumbun Riçmond (Virciniya ştatı) və Sent-Pol (Minnesota ştatı) şəhərlərindəki abidələrini dağıdıb, Boston və Mayamidəki heykəlləri isə vandalizmə məruz qalıb.

Qeyd edək ki, mayın 25-də qaradərili Corc Floydun polis tərəfindən öldürülməsindən sonra ABŞ-ın bir çox şəhərlərini irqçiliyə qarşı etiraz dalğası bürüyüb. Kütləvi aksiyalar bir sıra hallarda iğtişaş və talanlarla müşayiət olunub. Bu, ABŞ-da vətəndaş müharibəsi zamanı quldarlığın hökm sürdüyü Cənubun general və əsgərlərinə, həmçinin sol fəallar tərəfindən Amerikanın yerli sakinlərinin soyqırımında ittiham olunan səyyah Xristofor Kolumba qoyulan abidələrdən də yan keçməyib. Bir çox belə abidə hakimiyyət orqanlarının qərarı ilə sökülüb və ya etirazçılar tərəfindən dağıdılıb.

## Alimlər vikinqləri Skandinaviya sahillərində qəddar dəniz quldurları kimi təsvir edən ədəbi-bədii versiyaya ehtiyatla yanaşırlar

***Avropa və Qrenlandiya ərazilərində dəfn edilmiş vikinqlərin DNT-si ilə bağlı altı il tədqiqat aparmış alimlər araşdırmanın sensasiyalı nəticələrini açıqlayıblar. Bu barədə məqalə "Nature" jurnalında dərc edilib.***

"RİA Novosti" saytı xəbər verir ki, məqalədə vikinqlərin və skandinavların sinonim olmadığı, həmçinin zahirən müasir isveçlilərə və norveçlilərə oxşamadıqları bildirilir.

Alimlər vikinqləri Skandinaviya sahillərində qəddar dəniz quldurları kimi təsvir edən ədəbi-bədii versiyaya ehtiyatla yanaşıblar. Onlar Kembric Universitetinin Müqəddəs İoann Kollecinin professoru və Kopenhagen Universitetinin Geogenetika Mərkəzinin direktoru Eske Villerslevin rəhbərliyi altında DNT-nin sekven edilməsinin ultramüasir metodlarının köməyilə Avropa və Qrenlandiya üzrə çoxsaylı məzarlardan 442 vikinqin (o cümlədən kişi, qadın və uşaq) tam genomunu bərpa ediblər. Bu məzarların tarixi eramızdan əvvəl 2400-cü ildən eramızın 1600-cü illərinədək olan dövrü əhatə edir.

Alimlər bu qənaətə gəliblər ki, Sakandinaviya yarımadasında vikinq icmaları xaricdən gələn böyük axının təsiri altında yaranıb. "Biz öyrəndik ki, vikinqlər genetik mənşə baxımından sadəcə skandinav olmayıblar. Onların DNT-də Cənubi Avropa və Asiyanın təsirləri aşkarlanıb ki, əvvəllər bu barədə heç düşünülməyib. Skandinaviyanın həm daxilində, həm də xaricində yaşamış bir çox vikinqlər qeyri-skandinav mənşəli olublar", - deyə məqalə müəlliflərindən biri, Kopenhagen Universitetinin professoru Martin Sikora bildirib.

Şotlandiyadakı məlum məzarlarda vikinq hesab edilənlər əslində yerli əhali olub. Zahirən vikinqlərə bənzəyən həmin əhali onların adət-ənənələrinə də riayət edib. Böyük Britaniya əhalisində DNT-nin təqribən 6 faizi vikinqlərə aiddir. İsveçlilərdə bu, on faizdir. Digər tərəfdən, Norveçdə və Orkney adalarında vikinq skeletləri arasında əsl britaniyalılar da olub. İndi genetik cəhətdən sübut olunub ki, müasir Norveç ərazisindəki vikinqlər İrlandiya, Şotlandiya, İslandiya və Qrenlandiyaya gəlmiş, Danimarka ərazisindəki vikinqlər İngiltərəyə, İsveçdəki vikinqlər isə Baltik ölkələrinə getmişlər. Ekspedisiyaların çoxunda monastırlara və sahilyanı şəhərlərə basqınlar edilib. Lakin vikinqlər ticarətlə də məşğul olublar, əsasən xəz, suiti piy satıblar. Daha çox əyləncə xarakterində olan basqınlarda yaxın qohumlardan ibarət böyük qruplar iştirak edirdi. Məsələn, basqın zamanı öldürülmüş vikinqlərin məzarlığında alimlər dörd qardaşın, eləcə də digərlərinin genetik baxımdan yaxın olduğunu müəyyənləşdiriblər.

Müəlliflərin gəldiyi qənaətə görə, vikinqlərin çoxunda saçın rəngi indiyədək hesab edildiyi kimi açıq, kürən deyil, şabalıdı olub.

## Yeni layihələrlə əhali keyfiyyətli içməli su ilə təmin edilir

***Türkiyədə Reyhanlı su anbarı, Hatay içməli su təchizatının genişləndirilmiş depoları və bir neçə digər hidroloji obyektin açılış mərasimi keçirilib.***

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimlərində videoformatla iştirak edib.

Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik naziri Bekir Pakdemirli istifadəyə verilən hidroloji obyektlərin əhəmiyyəti barədə ümumi məlumat verib.

Gündəlikdə duran məsələlər, eləcə də Türkiyədə son illər həyata keçirilən iqtisadi layihələrdən bəhs edən Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, ölkənin su ehtiyatlarından səmərəli istifadə etmək hökumətin əsas hədəflərindəndir. Türkiyə yeni layihələrlə əhalinin içməli su təchizatında keyfiyyəti təmin edir, yeni sahələrin suvarmaya cəlb edilməsi ilə əkin sahələrinin artmasını və faydalılığını artırır.

***Sabir Şahtaxtı***

## Laptevlər və Qrenland dənizləri buzlaqların əriməsindən daha çox zərər çəkib

***Üç milyon yarım kvadrat kilometrdən də bir qədər çox olan Arktikada sahil buzlaqlarının sahəsi tarixi minimum həddə çatıb. Bu barədə ABŞ qar və buz örtüyü üzrə Milli Müşahidə Mərkəzi məlumat verib. "Euronews" telekanalı xəbər verir ki, bu göstəriciləri müqayisə edən mütəxəssislərin fikrinca, sonuncu dəfə buz örtüyü üzrə oxşar rəqəmlər 42 il əvvəl qeydə alınıb.***

Laptevlər və Qrenland dənizləri buzlaqların əriməsindən daha çox zərər çəkib.

Alimlər qeyd edirlər ki, buzlaq sahələrinin yay vaxtı dəyişməsi suyun təbiətdə mövsümi dövriyyəsinə uyğun gəlir. Lakin son illər qış aylarında buz örtüyünün artması əriməni kompensasiya etmək üçün kifayət etmir.

Sərt iqlimə baxmayaraq, Arktika bölgəsi ən kövrək ekoloji sistemlərdən biridir. Bu baxımdan buzlaqların azalması yerli fauna, xüsusən də qütb ayıları üçün çox təhlükəlidir.

## Atmosferdəki metan və $CO_2$-nin yüksək konsentrasiyası Arktika və şimal en dairəsindəki buz örtüklərinin qalınlığının sürətlə azalmasına gətirib çıxarıb



***Son onilliklərdə atmosferdəki metan və $CO_2$-nin yüksək konsentrasiyası Arktika və şimal en dairəsindəki buz örtüklərinin qalınlığının sürətlə azalmasına gətirib çıxarıb. Bu isə yer kürəsində qlobal istiləşmənin sürətlənməsi ilə nəticələnə bilər.***

Almaniya, Norveç və İsveç alimləri buzların sürətlə əriməsinə karbon qazı tullantılarının təsirini birlikdə öyrəndikdən sonra belə bir həyəcanlı nəticəyə gəliblər. Onların etdiyi xəbərdarlığa görə, yaxın 1-2 onillikdə bəşəriyyət özlərinin də miqyasını təyin edə bilmədiyi qarşısıalınmaz fəlakətlə üzləşə bilər. Bu isə son proqnozların əvvəlkilərdən daha qorxulu olduğunu göstərir.

Alimlər siyasətçiləri karbohidrogenlərin istifadəsini minimuma endirməyə və bərpaolunan enerji mənbələrinə keçməyə çağırırlar. Onlar, həmçinin meşələri qorumaq barədə çağırışlar səsləndirir və müntəzəm olaraq yeni tinglər əkirlər.

***Vüqar Seyidov***

## Aslan İslam oğlu Əliyev

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) kollektivinə ağır itki üz verib. Təcrübəli kapitan Aslan İslam oğlu Əliyev sentyabrın 29-da vəfat edib.***

Aslan Əliyev 1952-ci il mayın 17-də Kürdəmir rayonunda anadan olub.

1970-1974-cü illərdə Bakı Dəniz Yolları Məktəbində texnik-gəmi sürücüsü ixtisası üzrə təhsil alıb. 1975-ci ildə Xəzər Dəniz Gəmiçiliyində işə başlayıb. 1983-cü ilədək burada matros, kapitanın 3-cü köməkçisi, 2-ci köməkçisi, böyük köməkçisi vəzifələrində çalışıb.

1983-cü ildən başlayaraq 8 il Cənub Xəzər Balıq Mühafizəsi İdarəsində işləyən Aslan Əliyev kapitan vəzifəsinə qədər yüksəlməyi bacarıb. Daha sonra Dövlət Xəzər Mühafizəsi idarəsində fəaliyyətini davam etdirib. 1995-ci ildə oradan ayrılaraq 15 il "Xəzərdənizneftdonanması" idarəsində kapitanın böyük köməkçisi, 2-ci köməkçisi, kapitan vəzifələrini yerinə yetirib. 2010-cu ildən 2016-cı ilədək Xəzər Dəniz Neft Donanmasının Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Xidmətində hamiyəçi-kapitan işləyib.

Aslan Əliyev "Əsrin müqaviləsi"nin 15 illiyi ilə əlaqədar ölkənin neft sənayesinin inkişafındakı xidmətlərinə görə Prezident İlham Əliyev tərəfindən "Tərəqqi" medalı ilə təltif olunub. 2018-ci ildə ölkə başçısının Sərəncamı ilə "Gəmiçilik sahəsində xidmətlərə görə" medalına layiq görülüb.

Aslan Əliyev səmimiyyəti və işgüzarlığı ilə insanların böyük rəğbətini qazanıb. Elə buna görə də əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq və hər zaman ehtiramla yad olunacaq.

Allah rəhmət eləsin.

## Dəniz Akademiyasının müəllimlərinin kitabları Beynəlxalq Kitab Forumunda nümayiş olunub

***Rusiyanın paytaxtı Moskvanın "Manej" sərgi salonunda 2-6 sentyabr 2020-ci ildə 33-cü Beynəlxalq Kitab Sərgisi keçirilib.***

R. Hümbətəliyev

A.Sadiqov

Sərgidə dünyanın bir çox alim və müəllimlərini öz ətrafında birləşdirən Rusiya Təbiətşünaslıq Akademiyası nəşriyyatında 2004-2020-ci illər üçün çap olunmuş kitablar, həmçinin Akademiyanın son illərdə keçirilən tədris və metodiki nəşrləri də nümayiş etdirilib. Bu nəşrlər arasında Rusiya Təbiətşünaslıq Akademiyasının kataloquna daxil olan Azərbaycan Dövlət Dəniz Akademiyasının "Dəniz naviqasiyası" kafedrasının dosenti, riyaziyyat üzrə elmlər doktoru Rövşən Hümbətəliyevin həmmüəllifi olduğu 7 kitab və ADDA-nın İnformasiya Resurs Mərkəzinin baş mütəxəssisi, "Tətbiqi mexanika" kafedrasının müəllimi Adil Sadiqovun müəllifləri sırasında yer aldığı "Alqoritmlər nəzəriyyəsi" kitabı da olub.

Rusiya Təbiətşünaslıq Akademiyasından Rövşən Hümbətəliyevə Beynəlxalq Kitab Sərgisinin iştirakçısı olmasını təsdiq edən diplom, Beynəlxalq Kitab Sərgisinin iştirakçısının qızıl medalı və həmmüəllifi olduğu kitabların sərgidə təqdim edilən kataloqunda yer aldığını bildirən məktub göndərilib.

Qeyd edək ki, Rövşən Hümbətəliyev Rusiya Təbiətşünaslıq Akademiyasının akademiki, Adil Sadiqov isə həmin Akademiyanın professorudur.

Moskva hökuməti, Rusiya Kitab İttifaqı, Rusiya Nəşrləri və Kütləvi Kommunikasiyalar üzrə Federal Agentliyinin dəstəyi ilə keçirilən sərgidə 70 ölkədən ümumilikdə 350-dən çox nəşriyyat iştirak edib. Bu-ilki sərgiyə ilk dəfə iştirakçılar həm əyani, həm onlayn formada qatıla biliblər. Bu format tədbirin auditoriyasının genişlənməsində böyük rol oynayıb.

Sərgi müddətində 600-dən çox işgüzar görüşlər keçirilib. Koreya Respublikası "Gələcək İndi" proqramını təqdim edərək, Moskva Beynəlxalq Kitab Forumunda fəxri qonaq olub. Belçika, Böyük Britaniya, Macarıstan, Vyetnam, Almaniya, Yunanıstan, Misir, İsrail, Hindistan, İran, İtaliya, Çin, KXDR, Kolumbiya, Latviya, Birləşmiş Ərəb Əmirlikləri, Ukrayna, Pakistan, Polşa, Serbiya kimi ölkələrin aparıcı nəşirlərinin kitabları müxtəlif formatlarda təqdim edilib, Sinqapur, Suriya, Türkiyə, Fransa, Estoniya, Cənubi Koreya, Yaponiya və bir çox xarici ölkələrin nümayəndələri isə forumun qonağı olublar.

***Musa Əliyev***

## Təsdiqlənmiş soyuq hava rekordu hazırki iqlim dəyişikliyi dövründə planetdəki kəskin ziddiyyətlər barədə xəbərdarlıq mesajıdır

***Şimal Yarımkürəsinin ən isti yayı ərəfəsində Birləşmiş Millətlər Təşkilatının (BMT) tədqiqatçıları iqlim məlumatlarını araşdırarkən, çox dəhşətli yeni bir faktla qarşılaşıblar. Belə ki, 22 dekabr 1991-ci il tarixində Qrenlandiyanın buz təbəqəsi zirvəsindəki uzaqdan idarə olunan meteostansiyada Şimal Yarımkürəsi üçün rekord göstərici, -69,6 °C hava temperaturu qeydə alınıb.***

Bu barədə nat-geo.ru. saytının yaydığı məlumatda bildirilib.

BMT-nin Ümumdünya Meteoroloji Təşkilatı (BMT) tərəfindən elan edilən yeni rekord, bundan əvvəl 1892-ci və 1933-cü illərdə Sibir Arktikasının iki müxtəlif şəhərində qeydə alınmış -67,8 °C rekordunu üstələyir. Müqayisə üçün qeyd edək ki, bu ekstremal minimumların hər üçü NASA-nın məlumatına görə, təxminən, -63 °C təşkil edən Marsdakı orta temperaturdan aşağıdır.

"Bu yaxınlarda təsdiqlənmiş soyuq hava rekordu hazırki iqlim dəyişikliyi dövründə planetdəki kəskin ziddiyyətlər barədə xəbərdarlıq mesajıdır", - deyə Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) baş katibi Petteri Taalas söyləyib.

Bu minimumlar ekstremal maksimumlarla ziddiyyət təşkil edir ki, bu da qlobal istiləşmə sayəsində ildən-ilə yeni rekordların yaranmasına səbəb olur. Məsələn, 1892-ci ildə bundan əvvəlki aşağı rekord göstəricinin qeydə alındığı Sibirin Verxoyansk şəhərində bu ilin iyun ayında temperatur tarixdə ilk dəfə olaraq 38 °C olub ki, bu da Qütb dairəsi üçün yeni rekord temperatur göstəricisi deməkdir.

Qrenlandiyada ən aşağı yeni rekord göstərici ÜMT-nin Cenevrədəki hava və ekstremal iqlim hadisələri arxivində çalışan "iqlim detektivləri" qrupu tərəfindən aşkarlanıb. Rekord hava temperaturunu 1990-cı ildən 1992-ci ilə qədər Qrenland buzlaq təbəqəsinin ən yüksək zirvəsinə yaxın yerdə fəaliyyət göstərmiş Klink (Klinck) avtomatik meteostansiyası qeydə alıb. ÜMT-nin detektivləri bu barədə məlumat verməzdən əvvəl bu nəticələri təsdiqləyiblər.

ÜMT-nin arxivi 2007-ci ildə yaradılıb və bu illər ərzində burda xeyli sayda oxşar meteoroloji faktlar toplanıb. 2020-ci ilin iyun ayında arxivin tədqiqatçıları 31 oktyabr 2018-ci il tarixində baş vermiş ildırımın aşkarlandığını bəyan ediblər.

Qeyd edək ki, dünyanın bu ən uzun ildırımı Braziliya və Argentina boyunca 709 kilometrlik bir ərazidə çaxıb.

## Bütün sakinlərini qidalandırmaq üçün kifayət qədər ərzağın olduğu bir dünyada 690 milyon insan aclıqdan əziyyət çəkir

***Biz mağazalarda ehtiyacımızdan daha çox qida alırıq, meyvə və tərəvəzləri evdə xarab olmaq üçün qoyuruq və ya restoranlarda yeyə biləcəyimizdən artıq sifariş edirik - hər il bütün ərzaqların üçdə biri, meyvə və tərəvəzlərin yarısı və trilyon dollarlıq ət məhsullarının dörddə biri zibilə atılır. Eyni zamanda, üç milyarddan çox insan normal qidalanmır və ya sağlam qida ala bilmir.***

Planetin hər sakini bu vəziyyətin dəyişməsinə töhfə verə bilər, bu məsələdə əsas məqam – məlumatlılıqdır.

BMT-nin Xəbərlər xidməti bildirir ki, bu il BMT ilk dəfə olaraq Beynəlxalq ərzaq itkiləri və qida tullantıları ilə bağlı məlumatların yayılması Gününü qeyd edir. O, bir çox insanı ərzaq istehsalı və istehlakı da daxil olmaqla islahatlara ehtiyac barədə düşünməyə məcbur edən COVID-19 pandemiyası ilə üst-üstə düşdü.

**Ərzaq itkiləri və qida tullantıları: fərq nədədir?**

Dünyada istehsal olunan ərzaq məhsullarının təxminən üçdə biri hər il ya itirilir, ya da atılır. İnkişaf etməkdə olan ölkələrdə ərzağın 40 faizi məhsulun yığımı və ya emalı mərhələsində itirilir - buna ərzaq itkiləri deyilir. İnkişaf etmiş ölkələrdə mağazalarda satın alınmayan və ya evdə, restoranlarda və ya kafelərdə yeyilməyən qida israf edildikdə, istehlak və ya pərakəndə satış mərhələsində eyni faiz itirilir. Buna qida tullantıları deyilir.

BMT-nin Baş katibi Antonio Quterreş xüsusi gün münasibətilə müraciətində bildirib: "Ərzaq itkiləri və qida tullantıları mənəvi cəhətdən qəzəbləndiricidir. Bütün sakinlərini qidalandırmaq üçün kifayət qədər ərzağın olduğu bir dünyada 690 milyon insan aclıqdan əziyyət çəkməyə davam edir və 3 milyard insan sağlam qidalanmaq imkanından məhrumdur".

Ərzaq və Kənd Təsərrüfatı Təşkilatında (FAO) hər birimizin qidanın qorunmasına və zərərlərin qarşısının alınmasına töhfə verə biləcəyi praktik tövsiyələr hazırlanıb.

**1. Sağlam qida qəbul edin.**

İlk baxışdan sürətli həyatda faydalı qida hazırlamaq üçün vaxt tapmaq asan deyil, lakin sağlam qida hazırlamaq mütləq çətin deyil. İnternetdə ailəniz və dostlarınızla paylaşa biləcəyiniz bir çox sağlam fast-food resepti var.

**2. Yalnız ehtiyacınız olan məhsulları alın.**

Rasionu planlaşdırın. Həmişə zəruri məhsulların siyahısını tərtib edin və onu ciddi şəkildə izləyin, impulsiv alış-verişlərdən qaçın. Bu sizə daha az qida atmaqla yanaşı pulunuza da qənaət edəcəkdir!

**3. Yalnız "gözəl" meyvə və tərəvəz almayın.**

Qida məhsullarını görünüşünə görə qiymətləndirməyin! Qüsurlu formalı və ya görünüşündə qüsurlu meyvə və tərəvəzlər subyektiv standartlara cavab vermədiyi üçün tez-tez atılır. Narahat olmayın – onlar eyni dada malikdir! Yetkin meyvələrdən şirələr və desertlər hazırlamaq olar.

**4. Məhsulları düzgün saxlayın.**

Yeni alınmış məhsulları bir şkafın və ya soyuducunun dərinliyinə qoyun, əvvəllər alınan məhsulları isə göz qabağında saxlayın. Təzə, açılmış məhsulları soyuducuda saxlamaq üçün bağlı qida qablarından istifadə edin və həşəratlardan qorunmaq üçün paketləri bağlayın.

**5. Qablaşdırmadakı məlumatı diqqətlə oxuyun.**

Saxlama müddəti ilə yararlılıq müddəti arasında böyük fərq var. Saxlama müddəti bitmiş məhsulların istifadə edilməsi bəzi hallarda təhlükəsizdir, lakin son istifadə müddəti bitmiş məhsulların istehlakı yolverilməzdir. Məhsulların tərkibini oxuyun və trans yağlar və konservantlardan və ya böyük miqdarda şəkər və ya duzdan ibarət olan məhsulları almamağa çalışın.

**6. Kiçikdən başlayın.**

Restoranda yeməklərin daha böyük hissələrini paylaşmaq və bölüşmək üçün daha kiçik hissələr alın.

**7. Qalan qidanı istifadə edin.**

Hazırlanmış yeməklərin hamısını yemirsinizsə, qalanını dondurun və ya başqa bir yeməyin tərkib hissəsi kimi istifadə edin.

## YARIZARAFAT, YARIGERÇƏK

**Kifayət qədər söz ehtiyatı olan adamam. Amma bəzilərinin hərəkətini görəndə ən çox mən söz tapmıram.**

**Qohumlarımın hamısının yanında üzüqarayam. Böyük vəzifəyə mənim, kiçik vəzifənin isə onların istəklərini yerinə yetirməyə gücü çatmadı.**

**Saxta gülüşləri görəndə məni az qalır ağlamaq tutsun.**

**Əvvəlcə kredit götürürlər, sonra krediti necə qaytarmağın dərdi adamları götürür.**

**Uzağa hər kəs getmək istədiyi qədər gedir.**

**Yaxşı natiq olmadıqları üçün bəziləri danışanda adamın ürəyi bulanır?**

**Siz həyatda öz yerinizi axtarıb tapınca, görəcəksiniz ki, başqaları artıq yerinizdə oturub.**

**Allah yaxşı adamların maaşını artıra bilmirsə, heç olmasa pulunu bərəkətli eləsin.**

**Mən çox şey yığanları başa düşürəm. Yaltaqları başına yığanı necə başa düşüm?**

**Ən vacibi vaxtın nə vaxt olduğunu bilməkdir.**

**Döyülməkdən qorxanın qapısını hətta Şans da çətin döyə.**

**Bəzən gülməli danışan ağlamalı danışandan daha ağlamalı görünür.**

**Danışmaq həmişə qədərindən çox alınır.**

**Görməmiş kimə deyilir: görüb, özünü görməməzliyə vurana, yoxsa hər gördüyü şeydə gözü qalana?**

**Əvvəllər elə bilirdim ki, insanın "çəkisi" nə qədər çox olsa, sözünün üstündə durmaq onun üçün o qədər də asan olar.**

**Hər şey zərrəcə əyilməkdən başlayır.**

**Arxadan vurduqları üçün namərdləri qabağa buraxırlar?**

**Mənim yeyənlərim də deyənlərimə niyə oxşayır?**

**Allahım, biz bir olanda, bizdən yaxşısı olmur.**

**Qaradan xoşu gəlmədiyi üçün yalnız ağ yalan danışır?**

**Heç vaxt yalan deməyib? Bəs həqiqəti necə, söyləyibmi?**

**Bəzisi həqiqətdən uzaqlaşmadığını həqiqətin ətrafında dövrə vurmaqla sübut etmək istəyir?**

**Həqiqət barədə təsəvvürü olmayanın başqa şeylər barədə təsəvvürü necə olar?**

**Xoşbəxtliyin qapısı o qədər böyükdür ki, bu qapıdan keçəndə çox adam hiss etmir. Bədbəxtliyin qapısı o qədər kiçikdir ki, mütləq əzilirsən.**

**Vaxtında çox şeyi əlimdən buraxmışam. İndi gücüm heç nəyə gücü çatmayan ayaqlarıma da çatmır.**

**Bəzilərinə elə gəlir ki, elə ancaq onlar gəlməlidirlər.**

**Danışmağa sözün olanda da, olmayanda da yalan danışma.**

**Özlərinə ağıllı görkəm verənlərin hamısını mane olmamaları üçün ayrı bir tərəfə yığmaq lazımdır.**

**Xaraktercə oxşarlar maraqlı olmur.**

**Pozan münasibətləri pozmaq üçün deyil.**

**Nədənsə, güləşçilərdən başqa, hamı söz güləşdirir.**

**Hər yerindən duranın cibində şəxsiyyət vəsiqəsi gəzdirməsi doğrudur?**

**Şam işığında da yalan deyirdilər?**

**Həyatın davam etməsi naminə yaşasın Ədalət!**

***Rasif TAHİROV***

## Azərbaycan yığma komandası növbəti yoxlama oyununu "Səbail"lə keçirib

***Bakıda təlim-məşq toplanışında olan 19 yaşadək futbolçulardan ibarət Azərbaycan yığma komandası növbəti yoxlama oyununu "Səbail"lə keçirib.***

"Səbail"in müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşan yığmamız 4:1 hesablı qələbə qazanıb.

Camal Cəfərovun dubl etdiyi oyunda U-19-un digər qollarını dənizçilərin komandasının qapısına

Gülağa Əsədov və Kamal Kazımov vurublar.

## Olimpiya Oyunları gələn il iyulun 23-də başlayacaq

***Tokio Olimpiya Oyunlarının məşəl estafeti 2021-ci il martın 25-də Fukuşima prefekturasında başlayacaq. Bu, koronavirus pandemiyasına görə Oyunların təxirə salınmasından əvvəl tərtib edilən plana uyğundur.***

Kyodo agentliyi xəbər verir ki, bu barədə sentyabrın 28-də Olimpiya Oyunlarının təşkilat komitəsi məlumat yayıb.

Plana əsasən, J-Village futbol təlimi mərkəzində başlayacaq estafetin 121 gün davam edəcəyi və Yaponiyanın 47 prefekturasından keçəcəyi bildirilir. Qeyd edilir ki, əvvəlki cədvəl gələn il keçiriləcək Oyunların təqviminə uyğun olaraq yalnız bir gün fərqi ilə dəyişiklik edilərək saxlanılıb.

Qeyd edək ki, Olimpiya Oyunları gələn il iyulun 23-də, Paralimpiya Oyunları isə avqustun 24-də başlayacaq.

Təşkilatçıların bildirdiyinə görə, ümummilli estafetdə əvvəlcədən seçilmiş təqribən 10 min nəfər iştirak edəcək. Prinsip etibarilə yerli marşrutlara və tədbirlərə əməl olunacağını qeyd edən təşkilat komitəsi yalnız hər bir regionun statusu nəzərə alınmaqla bəzi dəyişikliklərin aparılmasını nəzərdə tuturdu. Belə ki, təşkilatçılar xərcləri azaltmaq məqsədilə məşəl estafetinin cədvəlini qısaltmaq istəsələr də, yerli hakimiyyət orqanlarının bu məsələdə nümayiş etdirdiyi kəskin narazılıq onları bu ideyadan imtina etməyə məcbur edib.

Nəticədə yalnız estafeti müşayiət edəcək avtomobillərin və şəxsi heyətin sayının azaldılması qərara alınıb.

Xatırladaq ki, Olimpiya alovu cari ilin əvvəllərində Yunanıstan Olimpiya kəndindən götürülərək Oyunların vaxtının dəyişdirilməsi barədə qərarın qəbulundan dörd gün əvvəl Yaponiyaya gətirilib.

Həmin vaxtdan etibarən məşəl təşkilatçı ölkədə saxlanılır. Hazırda məşəl Tokionun mərkəzində yerləşən Yaponiya Olimpiya Muzeyində ictimaiyyətə təqdim olunur. Həmin tədbirin noyabrın 1-də başa çatacağı qeyd edilir.

## Duzun tərkibində insan orqanizmi üçün faydalı olan 84 mineral var

***Xörəklərə dad verən duzun müxtəlif növləri var. Lakin mütəxəssislərin fikrincə, duz xörəklərə nə qədər dad versə də, ondan qədərində istifadə edilməsi vacibdir. İstifadə edilən duzun orqanik, yəni rafinə edilməmiş olması daha yaxşıdır, çünki həmin duzun tərkibində insan orqanizmi üçün faydalı olan 84 mineral var.***

Duzun tərkibində orqanizm üçün vacib minerallar olsa da, ondan həddindən artıq istifadə edilməsi zərərli təsir göstərə, hətta piylənmə, yüksək qan təzyiqi, insult və digər xəstəliklərə aparıb çıxara bilər.

Duz orqanizmdə ən vacib minerallardan biridir. Onun tərkibi 40 faiz natrium və 60 faiz xlordan ibarətdir. Duzsuz yaşamaq olmaz, lakin onun çoxluğu orqanizmdə fəsadlar yarada bilər. Natrium-xlor orqanizmin su elektrik balansının formalaşmasında əsas rol oynayan maddələrdən biridir. Gün ərzində 1 çay qaşığı duz qəbul edilməsi normal sayılır.

Duzu normadan artıq qəbul etdikdə yarana biləcək problemlərin aradan qaldırılması üçün bitki tərkibli çay və tərəvəzlərdən istifadə etmək məsləhət görülür.

## "Səbail" klubu 27 yaşlı konqolu yarımmüdafiəçi ilə yollarını ayırıb

***"Səbail" klubu futbolçusu Mabidi Çikito Lema ilə yollarını ayırıb.***

Klubun saytının verdiyi xəbərə görə, 27 yaşlı yarımmüdafiəçinin müqaviləsi qarşılıqlı razılaşma əsasında ləğv edilib.

Konqo Demokratik Respublikasından olan oyunçuya azad agent statusu verilib.

Qeyd edək ki, Mabidi Çikito Lema "Səbail"ə fevralın 12-də keçmişdi.

## FIFA yeniyetmə futbolçumuzun həlak olması ilə əlaqədar AFFA-ya başsağlığı verib

***Azyaşlı futbolçu Şəhriyar Qurbanovun Ermənistan ordusunun yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində həlak olması ilə əlaqədar FIFA-dan AFFA-ya başsağlığı məktubu daxil olub.***

AFFA-nın saytı xəbər verir ki, məktubda qeyd olunub:

"Şəhriyar Qurbanov xatirəsinə

Bu məktubla azyaşlı futbolçu Şəhriyar Qurbanovun bu yaxınlarda dünyasını dəyişməsi ilə bağlı səmimi və dərin hüznlə başsağlığımızı ifadə etmək istərdik.

Şəhriyarın ailəsinə, Naftalan futbol klubundakı komanda yoldaşlarına, dostlarına və sevdiklərinə dərindən kədərləndiyimizi çatdırır, bu çətin dövrdə sözlərimizin təsəlli verəcəyinə ümid edirik".

## Bir nəfərə iki doza lazım gələrsə...

***Kaliforniyada köpəkbalıqlarının mühafizəsi qrupunda fəaliyyət göstərən ekspertlərin fikrincə, COVID-19 əleyhinə vaksin istehsalı üçün 500 min köpəkbalığı öldürülə bilər. Bu barədə "Telegraph" qəzeti məlumat yayıb. COVID-19 əleyhinə potensial vaksinin tərkib hissələrindən biri skvalendir ki, bu da köpəkbalığının qaraciyərində olur.***



TASS informasiya agentliyi xəbər verir ki, Britaniyanın "GlaxoSmithKline" əczaçı şirkəti qrip əleyhinə vaksin üçün adyuvantların yaradılmasında köpəkbalığı qaraciyərindən əldə olunan skvalendən istifadə edir. Şirkət may ayında bildirib ki, koronavirus əleyhinə potensial istifadə üçün bu birləşmədən milyard doz istehsal etmək fikrindədir.

"Shark Allies" - köpəkbalıqlarının müdafiəsi qrupunun hesablamalarına görə, dünyada bütün insanlara COVID-19 əleyhinə bir doza vaksin vurulması üçün ümumilikdə 250 min köpəkbalığının öldürülməsi tələb olunur. Əgər bir nəfərə iki doza lazım gələrsə, müvafiq rəqəm iki dəfə artacaq.

"GlaxoSmithKline" şirkətinin nümayəndəsi bildirib ki, təmsil etdiyi kompaniya ətraf mühitin mühafizəsi prinsiplərinə sadiqdir və alternativ xammal mənbələrindən istifadənin mümkünlüyünü öyrənir.

İyul ayında Böyük Britaniya hökumət COVID-9 əleyhinə 60 milyon doza vaksinin tədarükünə dair Fransanın "Sanofi", habelə "GlaxoSmithKline" şirkəti ilə saziş bağlayıb. Bu şirkətlər aprel ayında koronavirus əleyhinə vaksinin hazırlanmasında səylərini birləşdirəcəklərini elan ediblər.

## Danışıq, düşünmə, qavrama, anlama, hesablama, tanıma kimi qabiliyyətləri tədricən zəiflədən xəstəlik

***Vaxtilə qədim Yunanıstanda yaşla yaddaş zəifliyi arasında əlaqənin olduğunu söyləsələr də, onun mövcudluğunu ilk dəfə 1906-cı ildə alman psixiatrı Alois Altsheymer aşkar edib. O, əlli yaşında vəfat edən xəstənin ölüm səbəblərini mətbuat səhifəsinə çıxarıb. Sonralar tibbi ədəbiyyatda ona oxşar bir sıra hadisələr barədə məlumat verilib və az sonra Altsheymer ayrıca bir xəstəlik kimi qəbul edilib.***

Altsheymer normal qocalıq əlaməti olan düşünmə qabiliyyətinin pozulması prosesini sürətləndirərək inkişaf edən və ya xroniki patologiya halına gətirən problemdir. Xəstəlik zamanı danışıq, düşünmə, qavrama, anlama, hesablama, tanıma kimi qabiliyyətlər tədricən zəifləyir. Bu, əsasən 65 yaşdan sonra inkişaf edən problemdir, lakin xəstəliyə bəzi hallarda daha erkən yaşlarda da rast gəlmək olur.

İndiyə qədər mütəxəssislər tərəfindən bir çox sensasiya yaradan açıqlamaların olmasına baxmayaraq xəstəliklə mübarizə və ya onun profilaktikası ilə əlaqəli heç bir dəqiq elmi sübut yoxdur. Tibbin köməyi ilə sadəcə xəstənin vəziyyətini yüngülləşdirmək mümkündür.

Hazırda dünyada xroniki yaddaş zəifliyindən əziyyət çəkən 35 milyon nəfər var. Mütəxəssislər 2050-ci ilə kimi həmin xəstəlikdən əziyyət çəkənlərin sayının 115 milyona çatacağını proqnozlaşdırırlar.

## Təbii antibiotiklərin üstünlükləri

***Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən dəfələrlə soyuqdəymənin ilk əlamətlərində bəzi insanların artıq miqdarda qəbul etdikləri antibiotiklərdən istifadə etməsinin antibiotikrezistentliyə gətirib çıxara biləcəyi elan edilir. Yəni mikrobların müəyyən növləri həmişə istifadə olunan preparatlara öyrəşir, mutasiyaya uğrayır və artıq onları qəbul etmir. Ciddi fəsad yarandıqda farmpreparatlar təsir etməyə də bilər. Xoşbəxtlikdən təbiət zərif insanın qayğısına qalaraq artıq çoxdan təbii antibiotiklər yaradıb. Bir çox bitkilər antibiotik xüsusiyyətlərə malikdir. Əlbəttə, onları təsir gücünə görə farmpreparatlarla müqayisə etmək olmaz. Ancaq təbiət tərəfindən yaradılan qida məhsulları kimyəvi preparatlar kimi güclü ziyan vura bilməz. Onların, demək olar, əlavə təsirləri yoxdur və tibbi preparatlardan ucuzdur. Təbii antibiotiklərin çox üstünlükləri var. Təbiətdə, eyni zamanda, bakteriya, virus və göbələklərdən qorunmaq üçün xüsusi maddələr var.***

Bu fikirlər AMEA Dendrologiya İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Tofiq Məmmədovun təbii antibiotik tərkibli dərman əhəmiyyətli bitkilərdən bəhs edən məqaləsində yer alıb. Alim məqalədə təbii antibiotik tərkibli dərman əhəmiyyətli bitkilər barədə məlumat verir, onların müalicəvi xüsusiyyətlərini diqqətə çatdırır.

Məqalədə qeyd edilib ki, təbii antibiotiklərin hər orqanizmə təsirini qiymətləndirmək çox çətindir. Ancaq soyuq havada vaxtaşırı onları qidaya əlavə etdikdə immuniteti möhkəmləndirir. Hindistanda ailəni bəlalardan qoruyan müqəddəs bitki hesab edilən reyhan universal təbii antibiotikdir, dezinfeksiya və bakterisid xüsusiyyətlərə malikdir və orqanizmi müxtəlif infeksiyalardan qoruyur. Bu bitki soyuqdəymədə, qripdə istifadə edilir. Bronxlardan bəlğəmi çıxarır, öskürəyi aradan qaldırır. Hərarəti sala bilər, yuxusuzluğu və əsəb gərginliyini götürür. Reyhanın efir yağı bakterosid təsirə malikdir. Reyhan həlimi angina və başağrısına kömək edir. Onun cövhərləri mədə-bağırsağın iltihab xəstəliklərində - qastrit, enterit, kolit və s. kömək edir. Dərinin ekzema və ya psoriazla zədələnmiş hissələrinə bu cövhərləri yaxmaq olar. Hamilə qadınlara və hormonal preparatlar qəbul edənlərə, habelə "qan laxtalanması" olanlara (tromboflevit, infarkt və ya insult keçirənlərə, ürək-damar sistemində problemi olanlara, şəkər xəstəliyindən əziyyət çəkənlərə) məsləhət görülmür.

Erikakimilər fəsiləsinin qaragilə cinsinə aid bitki növü olan mərcangilənin meyvələri pektin maddələr, polifenol və efir yağları ilə zəngindir. Tərkibində təxminən 70 xeyirli üzvi birləşmə, vitaminlər, xüsusilə C vitamini var. Provitamin A-nın miqdarına görə mərcangilə quşüzümü, limon, armud, alma, üzüm və qaragilədən üstündür. Onun meyvələrində benzoy turşusu - təbii konservant var. Benzoy turşusunun yaratdığı mühitdə xəstəliktörədici mikroblar inkişaf və çoxalmaq qabiliyyətini itirir. Bu turşu mərcangiləyə iltihaba qarşı təsir göstərərək onu antibiotikə çevirir. Sidik-ifrazat sistemi xəstəlikləri, xüsusilə sistitlərin müalicəsində istifadə edilir. Mərcangilə antibiotik və sulfamilamid preparatların aktivliyini artırmağa qadirdir. Ona görə də mərcangilə içkisi hərarəti olan xəstələrə, ağır xəstəliklər və zədələr keçirdikdən sonra iştahanı artırmaq üçün tövsiyə edilir. Ondan hazırlanan içki çox vaxt xərçəng intoksikasiyasında, kimyaterapiyadan sonra təyin edilir.

İyul və sentyabr aylarında bitən qaragilə meyvələrinin tərkibində 20 faizə qədər şəkər, 7 faiz aşı maddəsi, 8 faizə qədər limon və alma turşuları, habelə C vitamini, karotin, pektin maddələri var. Onun giləmeyvələrindən mədə–bağırsaq pozulmasında, ishalda, dizenteriyada sulu bişirmə, cövhər, kisel hazırlayıb istifadə edirlər. Qaragilənin yarpaqları da faydalıdır. Son illərdə yarpaqlarını qurudub çay hazırlayaraq diabet xəstəliyində, qanda şəkərin miqdarını azaldıcı dərman kimi içirlər. Giləmeyvələrin tərkibində olan aspirinə bənzər maddə ağrıkəsici və təravət salan təsirə malikdir. Qaragilə sidik yollarındakı bakteriyaları məhv edir və bütün orqanizm üzrə infeksiyanın yayılmasına mane olur. Yüksək hərarətdə, soyuqdəymədə istifadə edilir. Onun giləmeyvələrindən hazırlanan həlim iltihaba qarşı, xüsusən ağ ciyər, böyrək və ya sidik kisəsinin iltihabında müsbət təsir göstərir.

Tərkibində yüksəkkeyfiyyətli yağ olduğu üçün xardal toxumundan bitki yağı istehsalında min illər ərzində xammal kimi istifadə olunur. Yağı aldıqdan sonra yerdə qalan hissədən üyüdülmüş xardal tozu əldə edilir. Bu xardal tozundan süfrə xardalı hazırlanır. Xardalın əsas təsiredici maddəsi siniqrin qlükozididir. Xardal tozunun tərkibində kurkumin (aktiv inqrediyentdir) var ki, bu maddə ona sarı rəng verməkdən əlavə, bizim sağlamlığımız üçün xeyirlidir. Xardalın əsas xeyirli xüsusiyyətləri antimikrob, antigöbələk və iltihaba qarşı təsiridir. Bundan əlavə, xardalın tərkibində tapılan allil izotiosianatlar hüceyrələrinin qarşısını almağa və azaltmağa malikdir. Hərarət olmadıqda, soyuqdəymənin ilk əlamətlərində, boğaz qıcıqlanmasında, uzunmüddətli öskürəkdə istifadə edilir. Qədimdən qan azlığında təyin edilir.

Dekabrda yetişən və yayın ortasınadək bütün xüsusiyyətlərini saxlayan qreypfrutun toxumlarından hazırlanan cövhər 800 ştamm bakteriya və 100 növ göbələyə qarşı effektlidir. Viruslara qarşı da təsir edir və əlavə təsirləri olmur. Bütün qış ərzində soyuqdəymə xəstəliklərinin profilaktikası üçün istifadə etmək olar. Ancaq şirəsinin yarısınadək su ilə qarışdırmaq yaxşıdır. Toxumların çox güclü və qarışdırılmış hazır ekstraktı dərini yandıra bilər.

Zəncəfil tərkibində efir yağı olan bitkidir. Ümumiyyətlə, bu fəsildən olan üç növ bitkinin köklərindən zəncəfil alınır. Bunlar aptek (Zingiber officinale), alpiniya və kurkuma zəncəfilləridir. Zəncəfil mədənin həzmetmə fəaliyyətini artırır, mədə-bağırsağın iltihabının və çürüməsinin qarşısını alır. Odur ki, zəncəfilli xörəklərin və zəncəfil çayının xroniki mədə-bağırsaq xəstəliyinə tutulanlar üçün çox xeyri var. Zəncəfilin kökü antimikrob, iltihaba, bəlğəmə, hərarətə və tərləməyə qarşı xüsusiyyətlərə malikdir. Bu bitki soyuqdəymə, tonzillit, angina, laringit, faringit, bronxit, pnevmoniyanın kompleks müalicəsində istifadə edilir. Qaraciyər, mədə xorası xəstəliklərində, allergiya xəstəliyi kəskinləşdikdə, hipertoniklərə və ürək-damar xəstəlikləri olan insanlarda istifadə etmək təhlükəlidir.

Adokskimilər fəsiləsinə aid bitki cinsi olan başınağacının Azərbaycanda yabanı halda üç növü yayılıb. Başınağacının meyvələrindən daha çox istifadə edilir. Elmi təbabətdə onun qabıqlarından sulu dəmləmə, bişirmə və cövhər formada preparatlar hazırlayıb, daxili qanaxmalarda, eləcə də uşaqlıq və mədə-bağırsaq qanaxmalarında qankəsici dərman kimi işlədilir. Soyuqdəymə, öskürək, qrip, angina, pnevmoniya, bronxit, avitaminozda, bədənin yüksək hərarətində istifadə edilir.

## Klaustofobiya düşüncələrin düzgün idarə olunmaması nəticəsində yaranır

***Klaustofobiya, yəni qapalı məkanda qalmaq qorxusu, ən çox liftlərdən istifadə zamanı özünü büruzə verir. İnsanlarda nəfəs darlığı, baş gicəllənməsi, göz qaralması kimi hallar yaranır. Mütəxəssislərin dediyinə görə, bu vəziyyət daha çox düşüncələrin düzgün idarə olunmamasından asılıdır.***

Psixologiya üzrə fəlsəfə doktoru Yeganə Əsgərovanın dediyinə görə, belə fobiyanın yaranmasında çox vaxt genetik faktor rol oynayır, lakin uşaq yaşlarında müxtəlif travmaların yaşanması da



ciddi əhəmiyyət kəsb edir: "Bəzən valideynlər uşağa cəza verərkən onu qaranlıq otağa, zirzəmiyə salır, yaxud vahiməli filmlərdəki səhnələrlə qorxudur və bu halda bəzən nəfəs darlığı deyilən bir düşüncə yaranır. Əslində isə yaranan nəfəs darlığı yox, həyəcan pozuntusudur".

Fobiyanın yaranma səbəbi müəyyən edildikdən sonra müalicəyə başlamaq olar. Psixoloqun dediyinə görə, həmin qorxu müxtəlif mərhələlərlə aradan qaldırılır: "İlk növbədə, düşüncələr üzərində koqnitiv iş aparılmalıdır. Sonra isə ev tapşırığı olaraq ekspozisiyalar verilir. Məsələn, əvvəlcə açıq liftə girib çıxmaq, ikinci tapşırıq liftə minəndə özünə nəzarəti saxlamaq şərtilə dərindən nəfəs alaraq bir mərtəbə qalxıb-düşməkdən, sonrakı tapşırıq isə iki, üç və daha çox mərtəbə qalxıb-enməkdən ibarət olur".

Liftin dizaynı da fobiyanın aradan qaldırılmasında rol oynayır. İçəridə güzgünün olması fikri bir qədər yayındıraraq qismən də olsa, qorxudan uzaqlaşmağa səbəb olur.

Lakin bütün cəhdlərə baxmayaraq, düşüncələri idarə etmək mümkün deyilsə və müxtəlif narahatlıqlar yaranırsa, onda dərman müalicəsinə başlanılır.

### ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Xəzər Dəniz Neft Donanmasının "Kapitan Ağasiyev" gəmisi kapitanının böyük köməkçisi İbrahim Aslanova, atası

**Tapdıq İbrahimovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi ASCO sədrinin müavininin müşaviri Elman Qasımova

**qardaşının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2380